17 (1426) 30 aprel - 6 may 2026-cı il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “Çexiya ilə çox fəal siyasi dialoqumuz var”

“Bu, (Çexiyanın Baş nazirinin səfəri – red.) iki ölkə arasındakı əlaqələrin dinamik şəkildə inkişafını göstərir. Bizim çox fəal siyasi dialoqumuz var”.

Bu sözləri Prezident İlham Əliyev Çexiyanın Baş naziri Andrey Babişlə mətbuata bəyanatında söyləyib.

*“Bu gün bir çox məsələlər ətrafında - həm regional, həm ikitərəfli, həm daha qlobal xarakter daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır”*, - deyə dövlətimizin başçısı əlavə edib.

## “Azərbaycanın maliyyə və iqtisadi vəziyyəti sabitdir”

“Azərbaycanın maliyyə və iqtisadi vəziyyəti sabitdir. Çox illər ərzində, artıq doqquz ildir ki, valyutamız sabitdir”.

Bu sözləri Prezident İlham Əliyev Azərbaycan-Çexiya biznes-forumunda çıxışı zamanı söyləyib. Əslində, məzənnənin dəyişməz olaraq qaldığını, 2017-ci ildən etibarən bir dolların 1,7 manat təşkil etdiyini vurğulayan dövlətimizin başçısı deyib: *“Düşünürəm ki, bu, hər hansı yerli və xarici potensial sərmayədar üçün mühüm göstəricidir”*.

## “Azərbaycan və Çexiya energetika sektorunda çox etibarlı tərəfdaşlardır”

“Təbii ki, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Burada da uzun illər ərzində Azərbaycan və Çexiya çox etibarlı tərəfdaşlardır”. Bu barədə Prezident İlham Əliyev Çexiyanın Baş naziri Andrey Babişlə mətbuata bəyanatında bildirib. Dövlətimizin başçısı deyib ki, Azərbaycan nefti Çexiyaya ixrac edilir və Çexiyanın enerji balansında önəmli yer tutur.

## “Biz Azərbaycanda böyük potensialı olan bərpa olunan enerji sahəsini inkişaf etdiririk”

Bu barədə Prezident İlham Əliyev Azərbaycan-Çexiya biznes-forumunda çıxışı zamanı deyib. Planımızın 2032-ci ilə qədər Günəş, külək və hidroelektrik enerjidən 8 giqavat əldə etmək olduğunu söyləyən və bunun təkcə planlara yox, artıq imzalanmış müqavilələrə əsaslandığını diqqətə çatdıran dövlətimizin başçısı vurğulayıb ki, bunun üçün çoxlu sahə işləri aparılmalıdır.





## “Çexiyaya qonşu olan ölkələrə Azərbaycan təbii qaz ixrac edir”

*“Azərbaycan dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasındadır. Bunu, o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir”*.

Bu fikirləri Prezident İlham Əliyev Çexiyanın Baş naziri Andrey Babişlə mətbuata bəyanatında səsləndirib.

Dövlətimizin başçısı qeyd edib ki, bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqına üzv ölkədir. O cümlədən Çexiyaya qonşu olan ölkələrə Azərbaycan təbii qaz ixrac edir.

## “Bugünkü forum əməkdaşlığımızı intensivləşdirərək irəli aparacaq”

“Bugünkü forum əlbəttə ki, bizim əməkdaşlığımızı intensivləşdirərək irəli aparacaq və bu, bizim üçün çox önəmlidir. Çünki biz əminik ki, şirkətlərimiz əla məhsul və xidmətləri təklif edirlər”. Bu sözləri Çexiyanın Baş naziri Andrey Babiş Azərbaycan-Çexiya biznes-forumunda çıxışı zamanı deyib.

*“Biz birgə müəssisə yaratmağa, insanlarımızı işə götürməyə, tədqiqat və araşdırmaya investisiya yatırmağa, universitetlərlə əməkdaşlıq etməyə hazırıq və ölkəmizdə böyük potensial mövcuddur”*, - deyə Baş nazir əlavə edib.

## “Azərbaycan Çex Respublikası üçün strateji tərəfdaşdır”

*“Azərbaycan Çex Respublikası üçün strateji tərəfdaşdır. Bizim çox səmimi dostluq münasibətlərimiz var”.*

Bu fikirləri Çexiyanın Baş naziri Andrey Babiş Prezident İlham Əliyevlə mətbuata bəyanatında söyləyib.

O, Azərbaycanın bu gün dünyanın diqqət mərkəzində olduğunu da vurğulayıb.

## “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülmək böyük şərəfdir”

“Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyim səylərə görə “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülməyim ilə əlaqədar Gernika-Lumo və Pforshaym Şəhər şuralarına, Gernika Sülh Muzeyinə, Mədəniyyət evinə və “Gernika Qoqoratuz” Sülh Araşdırmaları Mərkəzinə dərin minnətdarlığımı ifadə edirəm”.

Bu barədə Prezident İlham Əliyev “Sülh və Barışıq üçün Gernika mükafatı”nın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində bildirib. *“Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir. Bu mükafatın 26 aprel – Gernika qurbanlarının anım günündə təqdim olunması xüsusi rəmzi məna daşıyır”*, - deyə dövlətimizin başçısı vurğulayıb.

Dövlətimizin başçısı, həmçinin qeyd edib: *“Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajı bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır. 30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış, müharibənin ağır fəsadları ilə üzləşmiş Azərbaycan xalqı da sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq”*.

## “Hərbi təyinatlı məhsulların birgə istehsalı ilə bağlı konkret layihələr üzərində danışıqlar gedir”

“Biz Çexiyadan hərbi təyinatlı bir çox məhsullar alırıq və indiki mərhələdə birgə istehsalla bağlı konkret layihələr üzərində danışıqlar gedir”.

Bu sözləri Prezident İlham Əliyev Çexiyanın Baş naziri Andrey Babişlə mətbuata bəyanatında deyib. Bu sahənin də çox genişmiqyaslı olacağına əminliyini bildirən dövlətimizin başçısı qeyd edib: *“Çünki Azərbaycan öz müdafiə potensialını, o cümlədən yerli istehsal hesabına təmin edir və gələcəkdə bu sahədə böyük təcrübəsi olan Çexiya kimi ölkələrlə bizim müştərək işlərimiz xüsusi önəm daşıyır”*.

## “SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir”

“Bir çox istiqamətlər üzrə bu gün biz uğurla əməkdaşlıq edirik. Bu əməkdaşlıq bu gün bir daha təsdiqləndi”.

Bu barədə Prezident İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenski ilə mətbuata bəyanatında da bildirib.

Bu gün müzakirə edilən məsələlər arasında siyasi dialoqdan başqa, xüsusilə energetika sahəsində də əməkdaşlığı qeyd edən dövlətimizin başçısı deyib: *“Burada həm əldə edilmiş nailiyyətlər var, - SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, - eyni zamanda, çox gözəl perspektivlər var, birgə layihələr var”*.

## “Ukrayna ilə əməkdaşlığımızın çox güclü siyasi təməli var”

“2022-ci ilin yanvarında Kiyevə səfərimi xatırlayıram. Sizinlə (Volodimir Zelenski – red.) apardığımız fikir mübadiləsi və ondan sonrakı təmaslar Ukrayna-Azərbaycan əlaqələrini daim yüksək səviyyəyə qaldırmışdır. Əməkdaşlığımızın çox güclü siyasi təməli vardır”.

Bu sözləri Prezident İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenski ilə mətbuata bəyanatında söyləyib.

Dövlətimizin başçısı qeyd edib: *“Azərbaycan ilə Ukrayna bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq ölkələrin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir və dəstəkləyəcək”*.



## “Həm Azərbaycanda, həm də Ukraynada hərbi sənaye kompleksi inkişaf edir”

“Hərbi-texniki əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı və burada da çox böyük perspektivlər var”.

Bu barədə Prezident İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenski ilə mətbuata bəyanatında bildirib.

“Həm Azərbaycanda, həm də Ukraynada hərbi sənaye kompleksi inkişaf edir və burada birgə istehsalla, ümumiyyətlə, sənaye sahəsində birgə istehsal ilə bağlı çox gözəl imkanlar var”, - deyə dövlətimizin başçısı vurğulayıb.

# "Ölkəmizdə yeni iqtisadi inkişaf modeli tətbiq edilir"

Bu sözləri "Sahibkarlar günü"nə həsr olunmuş "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.
Nazir bildirib ki, ölkəmizdə sahibkarlığın inkişafı mühüm mərhələdən keçib. ÜDM-də özəl sektorun rolu artmaqdadır.
Özəl sektor qarşısında duran çağırış məhz rəqabətin artırılmasıdır. Özəl sektora dövlət dəstəyi isə davam edir. Sahibkarlar üçün ixrac bazarlarının genişləndi-



rilməsi əsas prioritet olmalıdır.
İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak edirlər.

# "Qeyri-neft-qaz sektoru iqtisadi artımın başlıca drayverinə çevrilib"

"İqtisadiyyatın şaxələndirilməsi strateji hədəflərimizin əsasını təşkil edir və artıq qeyri-neft-qaz sektoru iqtisadi artımın başlıca drayverinə çevrilib".
Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda tədbirdə deyib.
***"Həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində Azərbaycan iqtisadiyyatında şaxələndirmə istiqamətində mühüm nəticələr əldə olunub. Qeyri-neft-qaz sektorunun ÜDM-də payı əhəmiyyətli dərəcədə artıb"***, - deyə nazir qeyd edib. Mikayıl Cabbarov bildirib ki, iqtisadiyyatın şaxələndirilməsində, xarici iqtisadi siyasətdə, beynəlxalq iqtisadi tərəfdaşların ölkəmizə gəlməsində özəl sektorun rolu böyükdür. Dövlət də daim sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin genişləndirilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü sahələrin inkişafına müxtəlif mexanizmlərlə dəstək göstərir.".

# "Özəl sektorda əmək müqavilələrinin sayı 2,1 dəfə artaraq 1 milyonu ötüb"

Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda tədbirdə deyib. Nazir qeyd edib ki, sahibkarlığın inkişafı ölkənin iqtisadi potensialının möhkəmlənməsində və sosial rifahın yüksəlməsində həlledici rol oynayan əsas amillərdən biridir. 2018-ci ildən etibarən 4 milyon nəfəri əhatə edən 5 sosial islahat paketi reallaşdırılıb. Bu dövrdə əmək müqavilələrinin sayı 44 faiz artaraq 1,9 milyona çatıb.



# "Çexiya Azərbaycanın əsas ticarət və ixrac tərəfdaşlarındandır"

Aprelin 27-də Qəbələdə keçirilən Azərbaycan-Çexiya biznes-forumu Azərbaycanın İqtisadiyyat, Çexiyanın Sənaye və Ticarət nazirliklərinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Çexiyanın Sənaye Konfederasiyasının birgə təşkilatçılığı ilə təşkil olunub.
İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, forumda hər iki ölkədən dövlət rəsmiləri ilə yanaşı, ticarət, enerji, sənaye, tikinti, maliyyə, nəqliyyat-logistika, İKT və xidmət sahələrində fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər.
Biznes-forumda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanla Çexiya arasında iqtisadi əlaqələrin qarşılıqlı etimad və ortaq prioritetlər əsasında inkişaf etdiyini vurğulayıb. Qeyd olunub ki, tərəfdaşlığın gücləndirilməsində Çexiya ilə İqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiya effektiv institusional mexanizm rolunu oynayır. Çexiya Azərbaycanın əsas ticarət və ixrac tərəfdaşlarındandır.
Azərbaycan Çexiyanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir. Bununla yanaşı, ticarətin şaxələndirilməsi iqtisadi tərəfdaşlığın əsas prioritetlərindəndir. Çexiya ilə sənaye, ticarət, investisiya, enerji, o cümlədən yaşıl enerji, nəqliyyat-logistika və digər istiqamətlər üzrə birgə fəaliyyətin geniş perspektivləri qeyd edilib.
Ölkəmizin iqtisadi potensialı, əlverişli işgüzar mühiti, ticarət, istehsal və logistikanı dəstəkləyən investisiya platformaları, həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sərmayədarlar üçün yaradılan imkanlar diqqətə çatdırılıb.

# Xarici dövlət borcunun yeni tərkibi açıqlanıb



2026-cı ilin 1 aprel tarixinə xarici dövlət borcu 4 milyard 689,3 milyon dollar və ya 2026-cı il üzrə proqnozlaşdırılan ÜDM-in 6,1 faizini təşkil edib.
AZƏRTAC Maliyyə Nazirliyinə istinadla xəbər verir ki, 2026-cı ilin 1 yanvar tarixi ilə müqayisədə xarici dövlət borcu 124,2 milyon dollar məbləğində azalıb.
Hesabat tarixinə xarici dövlət borcunun tərkibində dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici dövlət borcunun 49,1 faizini, sabit faiz dərəcəsi ilə olanlar isə 50,9 faizini təşkil edib. Xarici dövlət borcunun 59,2 faizi 5 ilə qədər olan müddətdə, 35,4 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 5,4 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.
2026-cı ilin 1 aprel tarixinə dövlət büdcəsi hesabına xarici borclar üzrə 158,5 milyon dollar məbləğində əsas borc, 71,9 milyon dollar məbləğində isə faiz borcu ödənişləri həyata keçirilib.

# Zərdabda Kür çayında suyun səviyyəsi artıb, vəziyyət nəzarət altındadır

Kür çayının Zərdab rayonu ərazisindən keçən hissəsində son günlər suyun səviyyəsində artım müşahidə olunur. Hazırda yaşayış məntəqələri üçün ciddi təhlükə yoxdur.
Bu barədə rayon Fövqəladə Hallar Komissiyasının sədri Ramo Hacıyev məlumat verib. Komisiya sədri bildirib ki, Kürün mühafizə bəndinə qədər olan subasar ərazilər su altında qalsa da, hazırkı vəziyyət təhlükəli həddə hesab edilmir: ***"Kürdə suyun səviyyəsinin təhlükəli həddə çatması üçün suyun hazırkı səviyyədən təxminən 1-1,5 metr yüksəlməsi lazımdır".***
Qeyd edilib ki, subasar ərazilərdə əsasən əkin sahələri yerləşir. Bundan əlavə, 1960-1970-ci illərdə tikilmiş 2 fərdi yaşayış evinin həyətinə və zirzəmilərinə su dolub. Həmin evlərdə anoloji vəziyyət hər il suyun səviyyəsinin artdığı dövrlərdə baş verir. Eyni zamanda, mühafizə bəndi ilə Kür çayı arasındakı əkin sahələri də su altında qalıb.
Buna baxmayaraq, əsas mühafizə bəndi üçün hər hansı təhlükə yoxdur.
Hazırda yaşayış məntəqələri üçün ciddi təhlükə qeydə alınmayıb və vəziyyət nəzarət altındadır.

# "Növbəti 5 ildə diqqəti Dövlət Auditi İnformasiya sisteminin qurulmasına yönəltmişik"

"Növbəti 5 ildə biz diqqəti Dövlət Auditi İnformasiya sisteminin qurulması, digər dövlət qurumların informasiya sistemlərinə inteqrasiyanın yaradılması, mümkün istiqamətlərdə süni intellektin tətbiqi və data analitika alətlərindən istifadənin genişləndirilməsi, ilk dəfə olaraq sektor strateji planların – ortamüddətli xərclər çərçivəsinin (OMXÇ) ayrıca auditi, konsolidə edilmiş maliyyə hesabatlarının auditi, tövsiyələrimiz əsasında dövlət maliyyəsinin idarəedilməsinin təkmilləşdirilməsi, dövlət auditinin keyfiyyətinin artırılması üçün yeni modelin tətbiqi və s. kimi prioritetlərə yönəltməyi hədəfləyirik". Bu barədə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov AZƏRTAC-a müsahibəsində deyib.
Bu prioritetlərin dövlət maliyyəsinin idarəedilməsinə təsirinə gəldikdə isə palata sədri qeyd edib ki, dövlət auditi ilə bağlı rəqəmsal həllin tətbiqi hesabatlılıq intizamına təsir edəcək.



# Hesablama Palatasının sədri büdcə vəsaitlərinin idarəedilməsi üzrə aşkarlanan nöqsanları açıqlayıb

"Mən bəzi məsələlərə xüsusi diqqəti yönəltmək istərdim. 36 nəzarət tədbirində büdcə vəsaitlərinin idarəedilməsi üzrə nöqsanlar aşkarlamışıq".
Bu barədə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov AZƏRTAC-a müsahibəsində deyib.
Palata sədri bildirib ki, müvafiq qurumların büdcəsi üzrə aşağı icra səviyyəsi, nəticə əsaslı dövlət sifarişi münasibətlərinin formalaşdırılmaması, vəsaitlərin istifadəsiz saxlanılmaqla digər hesablara yönəldilməsi, dövlət sifarişi şərtlərindən kənar dövlət vəsaitlərinin xərclənməsi kimi halları müşahidə etmişik.
***"Hesab edirik ki, Hesablama Palatasının da tövsiyələri nəzərə alınmaqla müvafiq icra orqanları tərəfindən fiskal qanunvericiliyin davamlı təkmilləşdirilməsi və rəqəmsal həllərin tətbiqi ilə cari nəzarətin gücləndirilməsi bəzi nöqsanların, o cümlədən vəsaitin təyinatı üzrə istifadəsi, vəsaitlərin icra edilməyərək bank hesablarında saxlanılması üzrə nöqsanların azalmasına xidmət edəcək.***
***İlkin müşahidələr bu istiqamətdə irəliləyişlərin olduğunu deməyə imkan verir"***, - deyə Vüqar Gülməmmədov əlavə edib.

# Cenevrədə Azərbaycanın aqrar sahədəki təcrübəsi təqdim edilib

Cenevrədə yerləşən BMT-nin Millətlər Sarayında Avropa və Mərkəzi Asiya üzrə Qida Sistemlərinin Transformasiyası üzrə 4-cü regional görüş keçirilib. Tədbirdə aqrar-qida sistemlərinin transformasiyası üzrə milli yol xəritələrinin icrasını sürətləndirmək, əldə olunan nəticələri qiymətləndirmək və region üzrə mövcud çağırışlara qarşı praktik həllər müzakirə olunub. Görüşdə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Leyla Cabbarlı-Mitova iştirak edib.
Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Leyla Cabbarlı-Mitova çıxışında ölkəmizin aqrar sahədə transformasiya yanaşmasını təqdim edib. Bildirib ki, Azərbaycanda kənd təsərrüfatı sektoru ənənəvi modeldən müasir, innovativ və məlumat əsaslı aqrar-qida sisteminə keçid mərhələsindədir. Bu transformasiya aqrar xidmətlərin geniş miqyasda rəqəmsallaşdırılması və süni intellekt texnologiyalarının tətbiqi ilə dəstəklənir və sektorun idarə olunmasında effektivliyi artırır.
Qeyd olunub ki, ölkədə həyata keçirilən aqrar siyasətin əsasını fermer mərkəzli yanaşma təşkil edir.
Dövlət proqramları, maliyyə dəstəyi alətləri və digər mexanizmlər fermerlərin ehtiyaclarına uyğunlaşdırılaraq onların risklərinin azaldılmasına, məhsuldarlığın artırılmasına və uzunmüddətli dayanıqlı inkişafın təmin olunmasına yönəlib.



# "KOB-lar tərəfindən yaradılmış əlavə dəyərin həcmi 21 milyard manata çatıb"

"KOB-lar tərəfindən yaradılmış əlavə dəyərin həcmi 2 dəfədən çox artaraq təqribən 10 milyard manatdan 21 milyard manata çatıb".
Bunu Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda tədbirdə deyib.
O bildirib ki, agentliyin faktiki fəaliyyətə başladığı 2018-ci ildən ötən müddət ərzində KOB subyektlərinin sayı 74 faizədək artaraq 424 mini ötüb. Bu dövrdə KOB sektorunun məşğulluq göstəricisi də 47 faiz



yüksəlib. ***"Sahəvi görüşlər, regional müzakirələr, sorğular, bizneslərə birbaşa səfərlər vasitəsilə sıx ünsiyyət əsasında əldə edilmiş məlumat və ehtiyaclar sonradan sırf KOB subyektləri üçün ünvanlı dəstək mexanizmlərinin hazırlanmasına imkan verib. Ümumilikdə 70 minədək KOB subyekti və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslər bu dəstəklərdən faydalanıb. İndiyə qədər KOB evlərində 1,5 milyondan artıq xidmət göstərilib. KOB evinin rəqəmsal modeli olan e-KOB evi portalından da artıq istifadə etmək mümkündür"***, - deyə Orxan Məmmədov qeyd edib.

# Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayı keçirilib











*23 aprel tarixində Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayı keçirilib.*

Qurultayda Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, professor Eldar Quliyev, sədrin birinci müavini, millət vəkili, akademik Əhliman Əmiraslanov, sədr müavinləri – millət vəkili, professor Eldar İbrahimov, millət vəkili Ağalar Vəliyev, Tahir Süleymanov, Bayram Yusifov, professor Vahid Novruzov, akademik Abel Məhərrəmov, İdarə Heyətinin üzvləri – AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, millət vəkili, akademik Ziyad Səmədzadə, akademik Arif Həşimov, professorlar Misir Mərdanov, Vaqif Şadlinski, Aqiyə Naxçıvanlı, Elbay Qasımzadə və İbrahim Quliyev, həmçinin millət vəkili Heydər Əsədov, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik Cəlil Xəlilov, Şuranın Aparat rəhbəri Ramin Həsənli, baş məsləhətçi-hüquqşünas Kamal Əliyev, eləcə də Şuranın 81 şəhər və rayon təşkilatının nümayəndləri, respublikamızın tanınmış ziyalıları, ağsaqqalları, şəhid ailələrinin üzvləri və gənclər iştirak ediblər.

Tədbirdən öncə Qurultay iştirakçıları Fəxri Xiyabana gələrək müasir, müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Əvvəlcə Qurultayda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda canından keçən qəhrəman şəhidlərimizin və ötən dövr ərzində dünyasını dəyişmiş ağsaqqalların xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Qurultayın gündəliyi səsə qoyularaq təsdiq edildikdən sonra Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, professor Eldar Quliyev giriş nitqi ilə çıxış edərək qonaqları salamlayıb və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının iştirakçılarına ünvanladığı müraciəti oxuyub. Ölkə başçısının göstərdiyi yüksək diqqət və qayğıya görə bütün ağsaqqallar adından öz dərin minnətdarlığını bildirib. Sonra natiq Şuranın son 5 illik fəaliyyətindən bəhs edərək 81 şəhər və rayon təşkilatında fəaliyyət göstərən minlərlə üzvün hər zaman Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini, tarixi irsini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasətini xalqımız arasında təbliğ etdiklərini, zəngin həyat təcrübələrindən, bilik və bacarıqlarından istifadə etməklə müxtəlif sahələrin inkişafına öz dəyərli töhfələrini verdiklərini vurğulayıb. Qeyd edib ki, son 5 ildə ölkəmizin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayan ağsaqqallar Azərbaycan üçün tarixi məqamlarda, xüsusilə 44 günlük Vətən müharibəsi və birgünlük antiterror tədbirləri zamanı Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin ətrafında sıx birləşərək rəşadətli Ordumuzu dəstəkləmiş, gənclərimizə daha çox vətənpərvərlik ruhu aşılamış, hər zaman şəhid ailələrinə, qazilərə diqqət və qayğı ilə yanaşmışlar. Hazırda öz fəaliyyətini uğurla davam etdirən Şura hər il üçün təsdiq olunmuş İş planına uyğun olaraq şəhər və rayonlarda ağsaqqalların, ziyalıların, gənclərin və ictimaiyyətin digər nümayəndələrinin iştirakı ilə geniş toplantılar, görüşlər, dəyirmi masalar təşkil edir. Ağsaqqallar xalqımızın milli-mənəvi dəyərlərinin, tarixi ənənələrinin qorunması, boşanmaların sayının azadılması, gənclərin təhsilə və hərbi xidmətə marağının yüksəldilməsi, onların xalqa və dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması, sağlam həyat tərzi keçirərək pis vərdişlərdən uzaq tutulması üçün hərtərəfli səy göstərməyi özlərinin prioritet vəzifələri hesab edirlər. Eldar Quliyev çıxışının sonunda vurğulayıb ki, Azərbaycan Ağsaqqallar Şurasının üzvləri bundan sonra da möhtərəm Prezidentimizin ətrafında sıx birləşərək öz fəaliyyətlərini yüksək səviyyədə davam etdirəcəklər.

Qurultayda, həmçinin, Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvləri – AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, akademik Ziyad Səmədzadə, professor Aqiyə Naxçıvanlı, Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri, professor Vaqif Şadlinski, eləcə də Yasamal Rayon Ağsaqqallar Şurasının sədri, professor Fuad Məmmədov, gənc fəal, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Nəzrin Abdullayeva, Nərimanov Rayon Ağsaqqallar Şurasının sədri, şəhid atası Arif Hümbətov, Xətai Rayon Ağsaqqallar Şurasının sədri, şəhid atası Mürvət Əsgərov, Gəncə Şəhər Ağsaqqallar Şurasının sədri, professor Nurəddin Məmmədov, Bərdə Rayon Ağsaqqallar Şurasının sədri Yaşar Zamanov, Beyləqan Rayon Ağsaqqallar Şurasının sədri Etibar İmanov, Sabunçu Rayon Ağsaqqallar Şurasının sədri Vəli Səfərov və Quba Rayon Ağsaqqallar Şurasının sədri İldırım Məmmədov çıxış ediblər. Natiqlər çıxışlarında Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursundan, davamlı inkişaf prosesindən, əldə olunan nailiyyətlərdən, eləcə də möhtəşəm Zəfərdən, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərindən, soydaşlarımızın doğma torpaqlarına qayıdışından bəhs ediblər. Bu davamlı inkişaf fonunda ölkəmizdəki ictimai-siyasi və sosial-mədəni proseslərdə yaxından iştirak edərək, dövlətimizin və xalqımızın milli mənafeyinə xidmət göstərən Azərbaycan Ağsaqqallar Şurasının aktiv fəaliyyətindən söz açıblar. Şuranın 81 şəhər və rayon təşkilatının 35 mindən çox üzvünün xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, cəmiyyətimizdə sağlam ictimai münasibətlərin formalaşdırılması istiqamətində bilik və təcrübələrini əsirgəmədiklərini vurğulayıblar. Ağsaqqalların və ziyalıların daim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunduqlarını qeyd ediblər.

Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayında təşkilati məsələlərə də baxılıb, səsvermə yolu ilə Şuranın Nizamnaməsi əlavə və dəyişikliklər edilməklə yeni redaksiyada qəbul olunub. Sonra Şuranın sədri vəzifəsinə yenidən professor Eldar Quliyevin namizədliyi irəli sürülüb və o, səvermə yolu ilə Azərbaycan Ağsaqqallar Şurasına sədr seçilib. Qurultayda, həmçinin, yeni üzvlər qəbul olunmaqla İdarə Heyətinin və Nəzarət-Təftiş Komissiyasının yeni tərkibi formalaşdırılıb. Daha sonra Qurultayın nümayəndələri adından Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri cənab Binəli Yıldırıma Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının keçirilməsi ilə bağlı məlumat məktubunun göndərilməsi qərara alınıb və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilib. Müraciət Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, professor Vahid Novruzov tərəfindən Qurultay iştirakçılarının diqqətinə çatdırılıb. Bununla da Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayı öz işini yekunlaşdırıb.



## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının nümayəndələrinin MÜRACİƏTİ

**Möhtərəm cənab Prezident!**

Öz sıralarında 30 min nəfərdən çox üzvü birləşdirən Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının nümayəndələri Sizə dərin ehtiramını ifadə edərək ölkəmizin tərəqqisi, dövlətçiliyimizin möhkəmlənməsi, beynəlxalq nüfuzunun yüksəlməsi və xalqımızın rifahının yaxşılaşması naminə həyata keçirdiyiniz məqsədyönlü, uzaqgörən və qətiyyətli siyasətə görə sonsuz minnətdarlığını bildirir.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası son illərdə bütün sahələrdə mühüm nailiyyətlər qazanmış, beynəlxalq müstəvidə etibarlı və nüfuzlu tərəfdaş səviyyəsində tanınmış, Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmişdir. Güclü siyasi iradə, praqmatik yanaşma və milli maraqların müdafiəsinə əsaslanan strateji kurs nəticəsində ölkəmiz davamlı inkişaf yolunda inamla irəliləyir, sosial-iqtisadi sahədə mühüm uğurlar əldə olunur, vətəndaş rifahı durmadan yüksəlir.

Xüsusilə vurğulamaq istərdik ki, Sizin Ali Baş Komandanlığınız altında rəşadətli Azərbaycan Ordusu tərəfindən 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük lokal antiterror əməliyyatı nəticəsində qazanılmış möhtəşəm Zəfər xalqımızın və ölkəmizin tarixində silinməz iz qoymuşdur. Silahlı qüvvələrimizin əldə etdiyi bu parlaq qələbələr nəticəsində uzun illər işğal altında qalmış doğma torpaqlarımız azad edilmiş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bu qələbələr təkcə hərbi uğur deyil, həm də xalqımızın milli qüruru, birlik və iradəsinin təntənəsi kimi Sizin adınızı tarixə qızıl hərflərlə yazmışdır.

Hazırda işğaldan azad edilmiş ərazilərdə Sizin rəhbərliyiniz altında aparılan genişmiqyaslı bərpa-quruculuq işləri dövlətimizin gücünü və gələcəyə hesablanmış inkişaf strategiyasını bir daha nümayiş etdirir. Müasir infrastrukturun qurulması, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin uğurla həyata keçirilməsi, eləcə də "Böyük qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin mərhələli şəkildə öz doğma yurdlarına qayıtması ölkəmizin yeni inkişaf mərhələsinin bariz nümunəsidir.

Hörmətli cənab Prezident!

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Milli mənəvi dəyərimizin qızıl fondu" adlandırdığı ağsaqqallar institutu hər zaman dövlətçiliyimizin dayaqlarından biri olmuş, milli birliyimizin, ictimai həmrəyliyimizin möhkəmlənməsinə xidmət etmişdir. Biz əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da yeni-yeni zirvələr fəth edəcək, müstəqilliyimiz daha da möhkəmlənəcək, xalqımız firavan və təhlükəsiz həyat şəraitində yaşayacaqdır. Öz sıralarında respublikamızın müdrik ağsaqqallarını, dəyərli ziyalılarını, görkəmli ictimai-siyasi xadimlərini birləşdirən Azərbaycan Ağsaqqallar Şurası bundan sonra da vətənimizin inkişafı naminə apardığınız işlərdə yaxından iştirak edəcək, özlərinin zəngin həyat təcrübəsindən, ictimai nüfuzundan və fəal vətəndaş mövqeyindən istifadə edərək gənclərin milli-mənəvi dəyərlərə hörmət və vətənpərvərlik ruhunda tərbiyə olunması, tarixi ənənələrin qorunması, ictimai sabitliyin möhkəmləndirilməsi sahəsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Sizə möhkəm cansağlığı, uzun ömür, ailə xoşbəxtliyi və şərəfli dövlətçilik fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq!

Uca Allah Sizi və Azərbaycanımızı daim qorusun!

**Dərin hörmət və ehtiramla,**
**Azərbaycan Ağsaqqallar Şurasının**
**IX Qurultayının nümayəndələri**

**Bakı şəhəri,**
**23 aprel 2026-cı il**

# Gernika mükafatı: barışıq və sülh simvolu

***2026-cı il Cənubi Qafqazda sülhün "mükafatlandırılması ili" kimi tarixə keçməkdədir. Bu ilin fevral ayında Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş Naziri Nikol Paşinyana təqdim olunan Zayed İnsan Qardaşlığı Mükafatı ən mühüm mükafatlardan biridir. Bu mükafat "Şərqin Nobeli" kimi tanınır və insan qardaşlığı ideyalarını təbliğ edən liderlərə verilir. Mükafat hər iki liderə ölkələri arasındakı 30 illik münaqişəni geridə qoyaraq sülh yolunu seçdiklərinə və regional barışığa töhfə verdiklərinə görə təqdim edilmişdir.***



**Vahid NOVRUZOV,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Gernika Sülh və Barışıq mükafatının verilməsi bu ilin ən yaddaqalan siyasi hadisələrindən biri kimi xüsusi əhəmiyyət kəsb edir.

Gernika Sülh və Barışıq mükafatı müharibə və zorakılığa qarşı mübarizə aparan sülh, insan haqları və tolerantlıq sahəsində fəaliyyətləri yüksək qiymətləndirilən şəxslərə və təşkilatlara verilir.

Bu mükafatın fəlsəfəsi müharibəyə qarşı çıxmaq və sülhü təşviq etməkdən ibarətdir.

Mükafatın əsas ideyası sülh və müharibəyə qarşı mövqedir.

**Namizədlər aşağıdakı fəaliyyətlərinə görə qiymətləndirilir:**

***- Sülhün təşviqi və zorakılığın qarşısının alınması;***
***- İnsan haqlarının müdafiəsi;***
***- Münaqişələrin dialoq yolu ilə həlli;***
***- Sosial ədalət və tolerantlığın inkişafı.***

**Qiymətləndirmə prosesi:**

***- Xüsusi münsiflər heyəti (ekspertlər və ictimai xadimlər) tərəfindən aparılır;***
***- Münsiflər yekun səsvermə ilə qalibi müəyyən edir;***
***- Bəzən bir neçə laureat seçilə bilər.***

2026-cı ilin laureatları olan İlham Əliyev (Azərbaycan Respublikasının Prezidenti) və Nikol Paşinyan (Ermənistanın Baş Naziri) üçün mükafatlar xüsusilə regional sülh proseslərinə və humanitar fəaliyyətlərə yönəlib.

Hər iki lider Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması, dialoqun təşviqi və münaqişənin həlli istiqamətində göstərdikləri diplomatik səylərə görə bu mükafata layiq görülüblər.

Gernika Sülh və Barışıq Mükafatı müxtəlif illərdə sülh, insan haqları və münaqişələrin həlli sahəsində fərqlənən şəxslərə və təşkilatlara təqdim olunub. Tanınmış laureatlardan biri kimi UNESCO-nun keçmiş baş direktoru, sülh təşəbbüslərinin təşviqatçısı Federiko Mayor Zaragozanı göstərmək olar.

Prezident İlham Əliyev mükafatla bağlı 2026-cı il 26 aprel tarixində mükafatın təqdimetmə mərasimi iştirakçılarına müraciət ünvanlayaraq, bu mükafatın Cənubi Qafqazda davamlı sülhün qurulmasına verilən beynəlxalq dəstəyin göstəricisi olduğunu qeyd edib.

***"Bu mükafat təkcə keçmiş uğurların tanınması deyil, həm də beynəlxalq ictimaiyyətin ortaq rifahı naminə gələcək addımlar üçün ruhlandırıcı bir təkan və məsuliyyətdir"***- prezident İlham Əliyevin mərasimə müraciətindən.

Media resursları bu mükafatın verilməsini Cənubi Qafqazda onilliklərdir davam edən münaqişənin sona çatması və 2025-ci ildə Vaşinqtonda imzalanmış birgə bəyannamədən sonrakı müsbət dinamika ilə əlaqələndirirlər.

Xarici mətbuat vurğulayır ki, mükafatın İlham Əliyev və Nikol Paşinyana verilməsi beynəlxalq birliyin hər iki liderin "çətin, lakin zəruri" sülh qərarlarına verdiyi legitimliyin göstəricisidir.

Yazılarda qeyd olunur ki, verilən sülh mükafatı müharibədən çıxmış xalqlar üçün "barışıq modelini" təşviq etmək məqsədi daşıyır.

Mərasimdə iştirak edən tərəflərin və beynəlxalq analitiklərin xarici mətbuatdakı şərhlərinə görə, 2026-cı il mükafatı sadəcə keçmiş nailiyyətlərə görə deyil, həm də gələcəkdə atılacaq addımlar üçün bir məsuliyyət payı kimi qiymətləndirilir.

Xarici mətbuat mükafatın hər iki liderə eyni vaxtda verilməsini beynəlxalq birliyin Cənubi Qafqazdakı yeni reallıqları tanıması kimi qiymətləndirir.

Amerika mətbuatı 2026-cı il Gernika mükafatı barədə yazarkən əsasən hadisənin qlobal sülh arxitekturasına təsirini və Cənubi Qafqazda onilliklər boyu davam edən münaqişənin diplomatik yolla həlli cəhdlərini ön plana çıxarır.

ABŞ-nin aparıcı analitik mərkəzləri və xəbər agentlikləri bu mükafatı regionda sülhün "geri dönməz" mərhələyə keçməsinin rəsmi təsdiqi kimi qiymətləndirirlər.

Bu hadisəni Vaşinqton Diplomatiyasının uğuru adlandıran ABŞ mətbuatı mükafatı 2025-ci ilin avqustunda baş tutan Vaşinqton Sammitinin məntiqi nəticəsi kimi təqdim edir. Onlar vurğulayırlar ki, İlham Əliyev və Nikol Paşinyanın eyni vaxtda mükafatlandırılması Qərbin regionda balanslı sülh tərəfdarı olduğunun mesajıdır.

"The New York Times" kimi nəşrlər mükafatı "münaqişədən əməkdaşlığa keçid" simvolu adlandıraraq, tərəflərin ilk dəfə beynəlxalq səviyyədə sülh liderləri kimi tanınmasına diqqət çəkirlər.

Amerika analitikləri qeyd edirlər ki, bu mükafat təkcə simvolik xarakter daşımır, həm də regiona ABŞ investisiyalarının cəlb olunması üçün "siyasi sığorta" rolunu oynayır.

Eyni zamanda vurğulanır ki, "Gernika mükafatı Bakı və İrəvanın keçmişin kölgəsindən çıxaraq gələcək inteqrasiyaya mühüm kredit qazandığını göstərir".

ABŞ analitiklərinin Gernika və Zayed mükafatları arasındakı Paralel barədə fikirləri də maraq doğurur. Qeyd olunur ki, 2026-cı ilin fevral ayında hər iki liderə verilən Zayed İnsan Qardaşlığı mükafatı ilə Gernika mükafatı arasındakı sinerji Sülhün həm Şərq, həm də Qərb tərəfindən tanınmasının və dəstəklənməsinin göstəricisi kimi qəbuledilləndir.

Ermənistan mətbuatında mükafatın verilməsi haqda xəbər bir tərəfdən "beynəlxalq legitimliyin artması" kimi sevinclə, digər tərəfdən isə (diaspora və müxalif media) "Strateji geriçəkilmələrin ört-basdır edilməsi" kimi narahatlıqla müzakirə olunur.

Ümumilikdə isə vurğulanır ki, bu mükafat Ermənistanın regionda gərginliyi azaltmaq və kommunikasiyaların açılmasına sadiqliyini təsdiqləyən mühüm bir simvoldur.

Qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu mükafat barədə fikirləri öz dolğunluğu və obyektivliyi ilə fərqlənir. Belə ki cənab Ərdoğan mükafatı "Qafqazda yeni dövrün qapısını açan bir addım" kimi xarakterizə edib. Bu mükafatın, eyni zamanda fevralda verilən Zayed İnsan Qardaşlığı mükafatı ilə silsilə təşkil etməsini regional barışıq üçün "tarixi şans" adlandırıb.

Türkiyənin iqtisadi yönümlü nəşrləri Gernika mükafatını siyasi bir hadisə olmaqla yanaşı, iqtisadi bir "yaşıl işıq" kimi təqdim edirlər.

Əminliklə demək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli, eyni zamanda regional və qlobal hədəflərə ünvanlanmış, təhlükəsizliyin qorunub saxlanılması və yeni münaqişələrin qarşısının alınmasının vacibliyinin regional ruhunu bütün tərəflərə aşılayan, müttəfiqlik zəminində zənginləşməni, güclənməni və qonşu ölkələr üçün əhəmiyyət kəsb edən, konseptual olduğu qədər də real imkanları özündə ehtiva edən siyasəti bundan sonra da çox böyük uğurlara imza atacaqdır.

Bu sanballı mükafat münasibətilə cənab Prezidenti təbrik edir və göstərilən məqsədlər naminə yeni-yeni uğurlar arzulayırıq.

# İXTİSARLAR, BAĞLANAN İŞ YERLƏRİ, DƏYİŞMƏYƏN İŞSİZLİK GÖSTƏRİCİLƏRİ...

*- Statistik məlumatlardakı ziddiyyətlər nə ilə bağlıdır?*

Azərbaycanda işsizliklə bağlı açıqlanan rəsmi göstəricilərlə real vəziyyət arasında fərq olması məsələsi tez-tez gündəmə gəlir. İqtisadçılar və sosial problemlər üzrə mütəxəssislər qeyd edirlər ki, açıqlanan rəqəmlər əmək bazarındakı faktiki durumu tam əks etdirmir. İş axtaran, lakin rəsmi qeydiyyata düşməyən, qeyri-rəsmi çalışan və ya ümumiyyətlə iş tapmaqdan ümidini kəsən insanların sayı nəzərə alındıqda, real işsizlik səviyyəsinin daha yüksək olduğu ehtimal olunur.




Ölkədə məşğulluq və işsizliklə bağlı açıqlana son rəsmi statistikada da bu zidiyyət bariz şəkildə özünü göstərir. Rəqəmlər göstərir ki, ölkədə məşğulluq proqramları həyata keçirilsə də, real vəziyyət bu istiqamətdə açıqlanan məlumatlarla tam uzlaşmır.

2026-cı il martın 1-nə olan məlumata görə, ölkədə əmək müqaviləsi ilə işləyənlərin sayı 1 milyon 784 min nəfər olub. Halbuki ilin əvvəlində bu rəqəm 1 milyon 808,5 min idi. Yəni cəmi iki ayda işləyənlərin sayı 24,5 min nəfər azalıb. Azalma həm dövlət, həm də qeyri-dövlət sektorunda qeydə alınıb.

Digər tərəfdən, 2026-cı il martın 1-də iqtisadi fəal əhali 5 milyon 385,7 min nəfər olduğu halda, onların 5 milyon 105,9 mini məşğul hesab edilib. Bir ay sonra – aprelin 1-də isə iqtisadi fəal əhali 5 milyon 389,8 min nəfərə yüksəlib və məşğul əhali 5 milyon 108,4 min nəfər göstərilib. 2026-cı il aprelin 1-nə olan məlumata əsasən, ölkədə işsizlərin sayı 281,4 min nəfər təşkil edib və ilin ilk üç ayında bu rəqəm cəmi 2300 nəfər artıb.

Bu ziddiyyətli rəqəmlərdən isə ortaya belə bir sual çıxır - İşləyənlərin sayı on minlərlə azaldığı halda, niyə işsizlərin sayı bu qədər az artır?

İqtisadçı Xalid Kərimli "AzPolitika"-ya şərhində bildirib ki, bu ziddiyət müxtəlif səbəblərlə izah oluna bilər: ***"Bu statistikaların hazırlanma metodologiyasından və istifadə olunan anlayışlardan xəbəri olmayanlar bu məsələdə çaşqınlıq yaşayırlar. Burada məsələ ondan ibarətdir ki, statistikaların biri ölkədə əmək müqaviləsi ilə işləyən əhalinin sayını göstərir, digəri isə işsiz kimi qeydiyyatda olanları. Bunları bir-bir aydınlaşdırmaq lazımdır".***

İqtisadçı vəziyyəti belə izah edib: ***"Birincisi, əmək məşğulluğu ilə iqtisadi fəal əhali fərqli anlayışlardır. Əmək müqaviləsi ilə çalışan şəxslərin sayı müxtəlif səbəblərdən azala bilər. Bu, təkcə iş yerlərinin bağlanması ilə bağlı deyil. Məsələn, insan pensiyaya çıxa bilər, əlillik ala bilər və ya ümumiyyətlə müxtəlif səbəblərlə əmək bazarından çıxa bilər. Hətta işləmək istəməyə də bilər. Birinci statistikada göstərilir ki, hazırda ölkədə, məsələn, 1 milyon 764 min nəfər əmək müqaviləsi ilə işləyir. Bu, həmin statistikanın göstəricisidir".***

***"Azalma varmı? Bəli, var. Amma bu azalma mütləq şəkildə işsizliyin artması və ya iş yerlərinin bağlanması ilə bağlı olmaya bilər. Əsas səbəblərdən biri bu ola bilər, amma başqa səbəblər də mümkündür. Amma təbii ki, azalma müsbət hal deyil. Dinamik və iqtisadi artımı yüksək olan ölkələrdə artımın olması daha arzuolunandır. Yəni, həm əhali artır, həm də əmək fəaliyyəti ilə məşğul olanların sayı artır. Əgər bir şəxs ixtisar və ya müəssisənin bağlanması nəticəsində işini itirirsə və yeni iş axtarırsa, o zaman işsiz kimi qeydiyyata düşə bilər",*** - deyə ekspert qeyd edib.

X.Kərimli qeyd edir ki, işsiz kimi qeydiyyat məsələsini "Məşğulluq haqqında" qanuna baxaraq aydın şəkildə görmək olar: "Birincisi, şəxsin işləmək hüququ olmalıdır. Bu, çox vacib məsələdir. Məsələn, tələbədirsə, hərbi xidmətdədirsə və ya həbsdədirsə, avtomatik olaraq işləmək hüququ olmur. Yəni müxtəlif səbəblərlə bu hüquq məhdudlaşa bilər. Həmçinin yaş faktoru da nəzərə alınır.

**İkincisi, şəxs aktiv şəkildə iş axtarmalıdır.**

Üçüncüsü, bunun üçün dövlət qurumlarına – məşğulluq orqanlarına müraciət etməli və rəsmi qeydiyyata düşməlidir.

Yəni, insan həm işsiz olmalı, həm işləmək hüququna malik olmalı, həm aktiv iş axtarmalı, həm də rəsmi qeydiyyata düşməlidir. Məsələn, şəxs işsiz qalsa, amma evdə oturub heç bir addım atmasa və ya sadəcə vaxt keçirsə, bu, onun avtomatik olaraq işsiz kimi tanınması demək deyil. O, mütləq işsiz kimi qeydiyyatdan keçməlidir. İşsizlik statistikası məhz bu qeydiyyatda olan şəxsləri əhatə edir. Hətta bu şəxslərə müəyyən ödənişlər də edilir, lakin burada da ciddi şərtlər mövcuddur".

***Bəs rəsmi qeydiyyatda nə qədər işsiz şəxs var?***

2026-cı il aprelin 1-nə Dövlət Məşğulluq Agentliyində qeydiyyatda olan işsizlərin sayı 246,9 min nəfər olub. Onların 51,7 faizini qadınlar təşkil edir. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği isə 475 manatdır. Maraqlıdır ki, bir ay əvvəl – martın 1-də qeydiyyatda olan işsizlərin sayı 250,3 min nəfər idi. Yəni rəsmi qeydiyyatlı işsizlərin sayı azalıb.

Ötən il ölkədə nə qədər iş yeri bağlanıb, neçə yeni iş yeri yaradılıb?

2026-cı ilin əvvəlinə olan göstəricilərə görə, ölkədə iş yerlərinin bağlanması prosesi davam edir. İlin əvvəlindən bu yana təxminən 9,5 min iş yeri bağlanıb və bunun böyük hissəsi qeyri-dövlət sektorunun payına düşüb. Bağlanan iş yerlərinin əhəmiyyətli hissəsinin Bakı şəhərində cəmləşməsi də diqqət çəkir.

Bununla yanaşı, 2025-ci il ərzində ölkədə 102,5 min yeni iş yeri yaradılıb. Regional bölgüyə baxdıqda isə yeni iş yerlərinin 76,5 faizinin Bakı şəhərində açıldığı görünür. Naxçıvan Muxtar Respublikasının payı cəmi 0,7 faiz, digər regionların payı isə 22,8 faiz olub.

Yeni iş yerlərinin strukturu da maraqlıdır. Onların cəmi 9,3 faizi yeni yaradılmış müəssisələrdə açılıb.

Maraqlı məqamlardan biri də odur ki, eyni ildə 13 min iş yeri bağlanıb. Bağlanan iş yerlərinin 44,5 faizi qeyri-dövlət sektoruna aiddir. Bu prosesin 21,6 faizi müəssisələrin fəaliyyətini dayandırması, 78,4 faizi isə mövcud müəssisələrdə aparılan ixtisarlarla bağlı olub.

**Mənbə: "AzPolitika.info"**

# Səudiyyə Ərəbistanının nümayəndə heyəti Azərbaycanın dəniz nəqliyyatının işi ilə maraqlanıb

Dövlət Dəniz və Liman Agentliyində (DDLA) Səudiyyə Ərəbistanı Krallığının Nəqliyyat Baş İdarəsinin nümayəndə heyəti ilə görüş keçirilib.



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə DDLA-nın fəaliyyətinə dair təqdimat nümayiş olunub. Qurumun keçdiyi inkişaf yoluna nəzər salınıb, həmçinin son illər ərzində dənizçilərin sertifikatlaşdırılması istiqamətində həyata keçirilən islahatlardan bəhs olunub.

Agentliyin İdarə heyəti sədrinin müavini Eldar Məcidov ötən il Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Nəqliyyat Baş İdarəsi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair Beynəlxalq Konvensiya"nın I/10 qaydasına uyğun olaraq sertifikatların qarşılıqlı tanınmasına dair bağlanmış Anlaşma Memorandumunu xatırladıb. Qeyd edib ki, sözügedən sənəd hər iki ölkənin dənizçiləri üçün olduqca əhəmiyyətlidir.

Görüşdə DDLA-nın dənizçi sənədlərinin rəqəmsal idarə olunması üçün istifadəyə verdiyi "My Cabinet" platforması, vahid informasiya sistemi, dəniz nəqliyyatı sahəsində kadr potensialının gücləndirilməsi, beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərin icrası ilə bağlı məsələlər müzakirə edilib.

# IE Liderlik və İnnovasiya Mərkəzinin yaradılması üzrə Anlaşma Memorandumu imzalanıb




İspaniyanın nüfuzlu IE Universiteti ilə strateji tərəfdaşlıq çərçivəsində Bakıda Liderlik və İnnovasiya üzrə “IE Mərkəzi”nin yaradılması üzrə Anlaşma Memorandumu imzalanıb. Memorandumu elm və təhsil naziri Emin Əmrullayev, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf, IE Universitetinin prezidenti Santiago Iñiguez de Onzoño və “PAŞA Holdinq” MMC-nin baş icraçı direktoru Cəlal Qasımov imzalayıblar.

# “Caspian Agro Week”də 45 ölkədən 447 şirkət iştirak edəcək



Mayın 5-dən 8-dək Bakı Ekspo Mərkəzində keçiriləcək “Caspian Agro Week” – 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu, “InterFood Azerbaijan” – 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi, eləcə də “Horeca Caspian” – 14-cü Xəzər Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar Sərgisində 45 ölkədən 447 şirkət iştirak edəcək.

Bu barədə aprelin 28-də sərgilərlə bağlı baş tutan mətbuat konfransında məlumat verilib.

Bildirilib ki, kənd təsərrüfatı və qida sənayesi üzrə regionun ən nüfuzlu tədbirinə və milli brendə çevrilmiş “Caspian Agro Week” və “InterFood Azerbaijan” aqrar-qida sərgiləri bir sıra yeniliklərlə yadda qalacaq. Daha öncə “Caspian Agro” kimi tanınan sərgi 2026-cı ildən etibarən yeni brend - “Caspian Agro Week” adı ilə təşkil ediləcək. Sərgilərdə tətbiq olunan yeniliklərdən biri də odur ki, “InterFood Azerbaijan” sərgisi vahid məkanda – Bakı Ekspo Mərkəzinin 4-cü pavilyonunda keçiriləcək.

Qeyd olunub ki, ilk dəfə olaraq “Caspian Agro Week” və “InterFood Azerbaijan” sərgiləri zamanı “Hosted Buyer” (Alıcı missiyası) proqramı təşkil olunacaq.

# Çinlə avtomobil yük daşımalarında kvota 5 dəfə artırılıb




Çinin Urumçi şəhərində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) ilə Çinin Nəqliyyat Nazirliyinin Nəqliyyat Xidmətləri Departamenti arasında tarixdə ilk dəfə olaraq beynəlxalq avtomobil daşımaları sahəsində görüş keçirilib. Görüşdə Azərbaycan daşıyıcıları və Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyasının nümayəndəsi də iştirak ediblər.

AYNA-dan AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarının mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

Görüşdə tərəflər arasında mühüm razılaşma əldə edilib. Belə ki, beynəlxalq yük daşımalarının həyata keçirilməsi məqsədilə 2026-cı il üzrə əlavə olaraq ikitərəfli və tranzit daşımalar üçün 5 000 ədəd, üçüncü ölkəyə/ölkədən daşımalar üçün isə 2500 ədəd icazə blankının mübadilə edilməsi barədə qərar qəbul olunub.

Beləliklə, cari il üzrə beynəlxalq yük daşımaları üçün mübadiləsi razılaşdırılmış İcazə blanklarının kvotası 5 dəfə artırılmış olub. Eləcə də, cari və növbəti ildə daşıyıcıların tələbatlarının tam qarşılanacağı barədə razılıq ifadə olunub.

Tərəflər “İcazə” blanklarının mübadiləsinin və verilməsinin elektronlaşdırılması ilə bağlı mühüm razılıq əldə ediblər. Rəqəmsallaşma layihəsinin həyata keçirilməsi məqsədilə birgə texniki işçi qrupunun yaradılması və mayın 1-dən işlərə başlanılması planlaşdırılır. Rəqəmsallaşma əməliyyat çətinliklərini minimuma endirməyə və daşıma proseslərini şəffaf və sürətli etməyə imkan verəcəkdir.

# Tariximizi unutmayaq, həmişə ayıq olaq... (“Susmaq qızıl deyilmiş”i oxuyarkən...)



**İslam İbrahimov,**
**iqtisad elmləri doktoru,**
**professor, Azərbaycan**
**Yazıçılar Birliyinin üzvü**

İslam Sadıq çox çətinliklər görmüşdür. Bu çətinliklər onu bərkitmiş, möhkəm və dözümlü, sərrast və iti düşüncəli etmişdir.

İslam Gəncədə Kənd Təsərrüfatı İnstitutunu (indiki Dövlət Aqrar Universitetini), Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirib. Elmi-ədəbi baxışları, tarixi əsərləri və dərin məzmunlu şeirləri ilə hörmət qazanmışdır. Filologiya elmləri doktoru, professordur. Professorun ″Susmaq qızıl deyilmiş...”, “Ermənilərin Birinci Pyotrla görüşü”, “Elmdə erməni virusu”, “Ermənilər Almaniyada” (alman dilində), “Türkiyə və ermənilər” (rus dilində) kitabları, “Şumerdə izim var”, “Şumer və türk dastanları”, “Şumer ədəbiyyatı”, “Azərbaycan kitab mədəniyyəti”, romanları və 20-dən çox poeması, şeirləri toplanmış 8 cildlik əsərləri, 500-dən çox elmi-publisistik məqalələri onu elmi-ədəbi ictimaiyyətdə tanıtmışdır. Fikrimcə, Bakıda və Moskvada keçirdiyi həyat yolu, qələmə aldığı dəyərli tədqiqatları, ibrətamiz fikirləri, real faktlara söykənən araşdırmaları onu mükəmməl yazar kimi hamımıza sevdirmişdir.

Xatırladım ki, onun qələmə aldığı mövzuları, araşdırdığı hadisələri, faktları çox az araşdırmaçı bilir. İslam müəllimin zamanında yazdığı “Susmaq qızıl deyilmiş...” tarixi-publisistik əsəri tarixi faktlara və çoxlu mənbələrə söykənir, erməni faşistlərinin azərbaycanlıların mənsub olduğu maddi-mənəvi dəyərlərə görə başına gətirilən müsibətləri özünəməxsus vətəndaşlıq qətiyyətli mövqeyi ilə dilə gətirmişdir. Hələ 1992-ci ildə qələmə aldığı kitabda 35 ilə yaxın bir dövrdə məni çox düşündürmüş, fikirlərimin, mənəvi dəyərlərimin zənginləşməsinə təkan vermişdir. Nəhayət, belə bir qənaətə gəldim ki, biz tariximizi unutmamalıyıq, ordumuzun ermənilərin zəbt etdikləri ərazilərimizi işğaldan azad etdikdən sonra qələbə sevinci bizi arxayınlaşdırmamalı, həmişə ayıq-sayıq olmalıyıq.

“Susmaq qızıl deyilmiş...” kitabını (Bakı, Azərnəşr, 1992, 256 s.) bir daha görürük ki, oxuyarkən tariximizin bir çox qaranlıq qalmış səhifələri vətəndaş cəsarəti ilə hələ 1990-cı illərin əvvəllərində işıqlandırılır. İstərdim ki, ermənilərin başımıza açdıqları riyakarlıqarı, saxtalıqları və yalanları, 200 illik talanları, qəddarlıqları, işgəncələri, vəhşilikləri, cinayətləri dəyərləndirmək və heç vaxt yaddan çıxarmamaq üçün həmin kitabdakı bir ifadəni nəzərinizə çatdırım: “Kim doğru söz eşitmək istəmirsə, qoy qulaqlarını yumsun, kim həqiqəti öz gözləri ilə oxumaq istəmirsə, bu kitabı heç əlinə də almasın” (s.161). Deyərdim ki, dəyərli tədqiqat əsərini oxuyub ermənilərlə bağlı nəticə çıxarmalıyıq. Atalar demişkən, **“İtlə dostluq elə, ağacını əlindən yerə qoyma”.** Torpaqlarımızın zənginliyinin çoxlarının qəlbinin rahatlığını pozduğu, zor və hiylə ilə alınıb ermənilərə verildiyi, müsəlmanların başına tarixdə görünməmiş müsibətlər açılması inkaredilməz faktlarla qələmə alınır. İslam çox haqlı olaraq qeyd edir ki, başımıza gətirilən vəhşiliklər, vətənimizə edilən təcavüzlər bizim mənəvi zənginliklərimiz, müdriklərimizin öyüd-nəsihətləri ilə əlaqələndir. Belə bir reallıq aşılanır ki, danışmaq gümüşdürsə, heç də susmaq qızıl deyil. Kitabda Şah İsmayıl Xətai, Füzuli, Sabir, Mirzə Cəlil və onlarla yaradıcı insanlarımızın xəyanət xislətli ermənilərin tarixən millətimizin başına gətirdikləri murdar, xəyanətkar və təcavüzkar hərəkətlərini dəlillərlə ifadə edən fikirləri qeyd olunur. Bu baxımdan kitabdakı tarixi mənbələrə baxmaq kifayətdir. Həm də çox vaxt kitabda atalar sözlərinə, aforizmlərə söykənərək erməni daşnaklarının tarix boyu torpaqlarımıza, millətimizə qarşı talanları, quldurluğu, xainlikləri dərin təhlil edilir. “Dost” cildinə girmiş düşmən həmişə fürsət gözləyib, tələ qurub ləyaqətli oğullarımızı aradan götürüb. Professor İslam Sadıq bunları düşünərək misralara çevirib qeyd edir ki, namərd ermənilərlə yol getmişik, bu nadanlara sirr vermişik. Ürək genişliyimiz, qəlb yumşaqlığımız üzündən başımıza nə bəlalar gəlməyib? Kitabda qəlbləri oxşayan aşağıdakı ifadələr diqqəti cəlb edir: “Oyaqların hamısı ayıq deyil, ayıqların hamısı oyaqdır”. “Ömürlük bir əzabın əvvəlcədən duyumudur körpə qışqırığı”, “Abırlı ev yiyəsinin abırsız-həyasız qonağı evində saxlamağı qəbahətdir”, “Qarğaya güllə atan, qanqalı yığıb dəstə bağlayan görməmişəm”, “Gözəlliyi ceyranı, ətri bənövşəni həmişə nakam qoyur”, “Mən inanmıram ki, bir quş başqa quşu yuvasından qovub onun yerində yaşasın”, “Qonşunun nə yuvanın quşu olduğunu bilməmiş ayağını uzadıb rahat yatma, deyərlər” və s.

Qeyd edilir ki, biz qonşularımızı yaxşı tanımamışıq, onları özümüz kimi mərd, xeyirxah sanmışıq. Ancaq 200 ildən çox bir müddətdə ermənilərin başımıza açdıqları acıları, quldurluğu, talanları unudub yenə də onlara isti münasibət göstərmişik. İslam Sadıq çox tutarlı tarixi faktlarla göstərir: “Qonşularımızdan biri ermənilərdir. Azərbaycan xalqı ermənilər yüz əlli-yüz altmış il, hətta bəziləri səksən-doxsan il bundan əvvəl torpaqlarımıza ilk dəfə qədəm qoyanda onları böyük ürəklə, böyük insanpərvərliklə qarşılamışdır. Torpağında yer vermiş, süfrəsinin başında oturtmuş, tikəsini onlarla yarı bölmüşdür. Mərdlik kimi namərdlik də, alicənablıq kimi xudpəsəndlik də adamın əslində-kökündə, qanındadır. «Əslində olan dırnağında göstərər» kəlamının müdrikliyinə və bu müdrikliyi yaradan babalarımızın uzaqgörənliyinə heyran qalsam da, süfrələrinin başında oturtduqları adamları tanımadıqlarına təəssüflənirəm" (“Susmaq qızıl deyilmiş…”, B.1992, s68).

Ermənilərin 24 fevral 1988-ci ildə Əsgəran rayonunda iki azərbaycanlını qətlə yetirdikləri vaxtdan indiyə kimi bu fikirlər məni rahat buraxmır, onların xisləti, mənəviyyatsızlığı barədə deyilənləri toplayıb xalqa çatdırmaq düşüncəsi ilə yaşamışam. Nəhayət, çoxlu sayda mənbələrə baxmış, faktlar toplamışam. Fikirləşirəm ki, tarixən gördüklərimiz, başımıza gətirilən faciələr təkrarlana bilər. Ona görə də erməni-müsəlman münasibətlərində beynəlxalq təşkilatların ikili siyasəti və havadarlarının dəstəyini nəzərə alaraq, bu mundar, xain erməniləri, qonşularımızı tanımalı, tariximizi unutmamalı, illər keçsə də, həmişə ayıq olmalıyıq. Bu baxımdan M.S.Ordubadinin “Qanlı illər” (B.1991) və İ.Sadıqın “Susmaq qızıl deyilmiş…” kitabını təkrar-təkrar oxumağı lazım bilirəm. Bir çox mənbələrə istinadən yazılmış tarixi əsərlərə əsasən ermənilər və onlar haqqında bəzi fikirləri qısaca çatdırmaq istəyirəm ki, məlumatınız olsun, niyə mən narahatam.

Ermənilərin 200 il ərzində göstərdikləri faktlar 1988-2020-ci illərdə də faşist təfəkkürünün təkrar olunduğunu sübut edir.

“V.L.Veliçko özündən əvvəl yazılanları, o cümlədən, “Murç” jurnalındakı həmin məqaləni araşdıraraq və öz şəxsi müşahidələrini ümumiləşdirərək belə qənaətə gəlmişdir ki, hazırda özünü milliyətcə erməni sayanların heç də hamısının əslinin-kökünün erməni tayfalarına bağlılığı yoxdur. O yazırdı: “Erməni qadınları digər xalqlarla zorla, məcburən də olsa, cinsi əlaqədə olmuşlar. Dövlətini və bununla əlaqədar olan şərəfini (namusunu – İ.S.) məğrurluqla, mərdliklə qorumaq qabiliyyətini çoxdan itirmiş erməni xalqının qadınları ilə münasibətdə İran əsgərləri, Azərbaycan tatarları (azərbaycanlılar – İ.S.), türklər, gürcülər və dağlılar, görünür, heç bir ədəb-ərkan gözləməmişlər”.

Belə şəraitdə aydındır ki, ermənilərin damarından hər cür qan (bütün xalqların qanı – İ.S.) axır. (V.L.Veliçko, “Qafqaz. Rus siyasəti və qəbilələrarası məsələlər”, s. Peterburq, 1904, s. 60-61).

F.Engelsin “Ailə, xüsusi mülkiyyətin və dövlətin mənşəyi” əsərini oxumamış və güman edirəm ki, onun barəsində az-çox təsəvvürü olmayan az adam tapılar. F.Engels irihəcmli həmin əsərinin bir yerində “Pul müqabilində kişilərlə əlaqədə olmaq əvvəl dini bir mərasim idi; bu mərasim məhəbbət ilahəsinin məbədində icra edilirdi və pul əvvəllər məbədin xəzinəsinə daxil olurdu. Ermənistanda Anaitis hiyerodulları, Korinfdə Afrodita hiyerodulları, habelə Hindistanın məbədlərdə xidmət edən və bajaderka adlanan (Portuqaliya dilindəki bailadeira – rəqqasə sözünün təhrif olunmuş şəklidir) dini rəqqasələri ilk fahişələr idi” (K.Marks və F.Engels, “Seçilmiş əsərləri”, üç cilddə, 3-cü cild, Azərnəşr, Bakı, 1983, s. 275).

**(davamı gələn sayımızda)**

# Yanacaq böhranı Avropanın maliyyə resurslarını azaldır

Bu günlərdə dünya enerji bazarında neft növbəti dəfə bahalaşaraq 110 dollara yaxınlaşıb. Artım ilə əlaqədar olaraq Avropa və ABŞ-də benzinin və digər neft məhsullarının qiymətində də artım müşahidə edilir.

Aprelin 28-si səhər London birjasında “Brent” markalı neftin 1 barelinin qiyməti 2,75 faiz artaraq 109,52, Nyu-York birjasında WTI markalı neftin 1 barelinin qiyməti 2,1 faiz artaraq 97.52 dollara çatıb. Azərbaycanın “Azeri Light” markalı neftin 1 bareli isə 113,85 dollara satılır.

ABŞ Prezidenti Donald Tramp İranın Hörmüz boğazını açmaq üçün irəli sürdüyü təklifi qəbul etməyib.

“The New York Times” qəzetinin analitik məqaləsində deyilir ki, ABŞ Prezidenti İranın heç bir təklifini qəbul etməyəcək, çünki onun əsas məqsədi İranın nüvə proqramını tamamilə ləğv etməkdən ibarətdir ki, bunu da rəsmi Tehran qətiyyən qəbul etmək istəmir.

Bütün bunlar boğazın açılması cəhdlərinin iflasa uğramasına səbəb olub ki, bu da treyderlər üçün qiyməti artırmaq üçün fürsət yaradıb. Hazırda İran Hörmüz boğazını, ABŞ isə Körfəzə giriş və çıxışı blokadada saxlayır. Bu vəziyyət İranın özündə benzin qıtlığı yaradıb. ABŞ bombardmanları nəticəsində neft ayırma zavodları dağılıb və əhalinin benzinə olan tələbatı tam ödənilmir ki, bu da yanacaqdoldurma məntəqələrində uzun növbələr yaradıb.

ABŞ ilə İran arasında davam edən ixtilafdan ən çox zərər çəkən Avropa dövlətləridir. ABŞ-də yanacağın qiymətləri artsa da özünün neft və qaz ehtiyatları var. İran dünya bazarına neft çıxara bilməsə də, hasil etdiyi təbii qaz ilə ölkənin yanacaq tələbatını hələ ki ödəyə bilir. Avropa isə Rusiya qazından və neftindən Ukrayna müharibəsinə görə imtina etdiyinə, Yaxın Şərqdən də təchizatın dayandığına görə ağır iqtisadi vəziyyətə düşüb. Yanacaq böhranı Avropanın maliyyə resurslarını azaldır.



# Gəncədə Qadın Sahibkarların I Qurultayı olub






Gəncə şəhərində "Credence Group" və Azərbaycan Sahibkar Qadınlar İctimai Birliyinin (ASQİB) təşkilatçılığı ilə Qadın Sahibkarların I Qurultayı keçirilib. Bu barədə İctimai Birlikdən məlumat verilib.

"Güclü qadınlar, sonsuz imkanlar" şüarı altında keçirilən tədbir qadın sahibkarlığının inkişafına dəstək vermək, biznes mühitində qadınların rolunu gücləndirmək, eləcə də regionlarda yeni əməkdaşlıq platformalarının formalaşdırılmasına şərait yaratmaq məqsədilə təşkil olunub.

Qurultay çərçivəsində ölkənin ictimai və işgüzar həyatında nüfuz qazanmış şəxslər spiker və fəxri qonaq qismində iştirak ediblər.

Tədbirdə Sahibkar Qadınlar İctimai Birliyinin sədri və "Qızıl Əllər" MMC tədris müəssisəsinin təsisçisi Zenfira Ağayeva ölkədə sahibkarlığın inkişafının iqtisadiyyat üçün əhəmiyyətini vurğulayaraq, dövlət tərəfindən göstərilən dəstək və yaradılan şərait haqqında ətraflı məlumat verib və qurultayın işinə uğurlar arzulayıb.

Sonra Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, İndoneziyanın ölkəmizdəki səfiri Berlian Helmini, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə, tanınmış rəssam-modelyer, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti və "Fakhriya Khalafova" moda evinin təsisçisi Fəxriyyə Xələfova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, "Destec Group"un idarə heyətinin sədri Sakit Səmədov, "EP" MMC və "Gəncə ABAD" İTB-nin təsisçi direktoru Pəri Eyyubova, yazıçı-publisist Nüşabə Məmmədli və başqaları öz təcrübələrini və sahibkarlığın inkişaf perspektivləri ilə bağlı fikirlərini iştirakçılarla bölüşüblər. Onlar ASQ Birliyinin fəaliyyətini yüksək qiymətləndirərək qadın sahibkarlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Qurultay çərçivəsində bir qrup sahibkar xanım "Fəxri diplom" ilə təltif olunub.

Tədbir bədii proqram ilə davam edib.

# DVX-nin rəis müavini İlkin Vəliyev Qəbələ şəhərində vətəndaşları qəbul edəcək

Qəbələ, İsmayıllı və Oğuz rayonları sakinlərinin nəzərinə!

Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev 8 may 2026-cı il tarixində saat 11:00-dan etibarən 10 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında (ünvan: Qəbələ şəhəri, İ.Qutqaşınlı küçəsi 117) Qəbələ, İsmayıllı və Oğuz rayonlarının sakinlərini qəbul edəcək.

Qəbula gəlmək istəyən vətəndaşlar 27 aprel – 6 may 2026-cı il tarixlərində Qəbələ şəhərində 10 saylı Ərazi Vergilər İdarəsinə, Qəbələ və İsmayıllı rayonları üzrə Xidmət mərkəzlərinə müraciət etməklə, eləcə də İqtisadiyyat Nazirliyinin 195-1 Çağrı Mərkəzinə zəng etməklə və ya DVX-nin office@taxes.gov.az elektron poçt ünvanına yazmaqla qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşların qəbula müraciət zamanı aidiyyəti məsələləri dolğun şəkildə ifadə edən ərizə təqdim etmələri xahiş olunur.

# DVX ADA Universitetində təşkil olunmuş Karyera Sərgisində iştirak edib




ADA Universitetində müxtəlif sahələri təmsil edən qurumlarla tələbələri bir araya gətirən 14-cü Karyera Sərgisi baş tutub. Miqyasına görə fərqlənən builki tədbirdə 150 yerli və beynəlxalq şirkətin, habelə dövlət qurumlarının 400-ə yaxın nümayəndəsi iştirak ediblər.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) ənənəvi olaraq bu il də sərgidə xüsusi stendlə təmsil olunub. DVX nümayəndələri tələbə və məzunların suallarını cavablandıraraq, vergi orqanlarına işə qəbul prosesi və qurumun peşəkar inkişaf imkanlarını diqqətə çatdırıblar. Tədbir zamanı DVX-nin Yay Təcrübə Proqramı gənclərin böyük marağına səbəb olub.

Tələbələrə proqramın seçim meyarları və üstünlükləri barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, DVX-nin Yay Təcrübə Proqramına qəbul davam edir. Proqramda iştirak etmək üçün sənəd qəbulu tecrube@taxes.gov.az elektron poçt ünvanı vasitəsilə 10 may 2026-cı il saat 23:59-dək həyata keçiriləcək. Müraciətlər göndərilərkən (mövzu hissəsində "Yay Təcrübə Proqramı 2026" qeyd etməklə) şəxsiyyət vəsiqəsi, tələbə bileti və akademik transkript mütləq qaydada fayl şəklində məktuba əlavə olunmalıdır.

# Naxçıvanda Dövlət Vergi Xidmətinə daxil olmuş müraciətlərin 95,7 faizi həll olunub

2026-cı ilin yanvar-mart aylarında Naxçıvanda vergi orqanlarına ümumilikdə 361 müraciət daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 8,1 faiz azdır. Müraciətlərdən 88,4 faizini ərizələr, 11 faizini şikayətlər, qalan hissəsini isə müxtəlif təkliflər təşkil edib. Müraciətlərin 95,8 faizinin baxılması cari dövr ərzində başa çatdırılıb, 4,2 faizi isə hazırda icradadır. Baxılmış müraciətlərdən 95,7 faizi həll olunub, 2,9 faizi ilə bağlı qanunamüvafiq qərarlar qəbul edilib, qalanları barədə müvafiq izahat verilib.

Daxil olmuş faktiki şikayətlərdən 92,5 faizi həll edilib. Bunlar, əsasən, kameral vergi yoxlamaları, vergi bəyannamələri, vergi borcu, vergi ödəyicisinin qeydiyyatı və digər məsələlərlə bağlı olub.



2026-cı ilin yanvar-mart aylarında Naxçıvan MR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində müvafiq vəzifəli şəxslər tərəfindən ümumilikdə 63 vətəndaşın qəbulu təşkil olunub. Qəbul zamanı hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılıb, onların qanuni tələblərinin müsbət həlli üçün lazımi tədbirlər görülüb, həlli imkan xaricində olan məsələlərlə bağlı qanunamüvafiq izahatlar verilib.

# Vergi cinayətləri ilə mübarizə tədbirlərinin nəticələri açıqlanıb

2026-cı ilin 1-ci rübü ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində vergi ödəməkdən yayınma, əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işçilərin işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, saxta aksiz markalarını hazırlama, əldə etmə, saxlama, satma, habelə aksiz markası ilə markalanmalı olan məhsulları (malları) saxta aksiz markaları ilə markalama, saxlama və ya satma, aksiz markaları ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma faktları üzrə cəmi 89 cinayət işi başlanılıb.



Hesabat dövründə 23 nəfər barəsində 19 cinayət işi üzrə ittiham aktı baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib. İcraatına xitam verilmiş 12 cinayət işi, o cümlədən cinayət işinin başlanılması rədd olunmuş 51 material və ibtidai istintaqı tamamlanmış 5 cinayət işi üzrə 2.180,1 min manat məbləğində vurulmuş ziyanın dövlət büdcəsinə ödənilməsi təmin edilib. Bundan əlavə, hesabat dövründə icraatı davam edən cinayət işləri və materiallar üzrə dövlət büdcəsinə ümumilikdə 4.185,4 min manat məbləğində vurulmuş ziyanın ödənilməsi təmin olunub.

Müxtəlif sahələr üzrə, o cümlədən idxal, topdan və pərakəndə ticarət, istehsal, ictimai iaşə fəaliyyəti göstərən 14 vergi ödəyicisinə məxsus 19 obyektdə "Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi" məsələsi üzrə operativ vergi nəzarəti tədbirləri həyata keçirilib və 9 vergi ödəyicisinə məxsus 10 obyektdə ümumilikdə 30 nəfər fiziki şəxsin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi faktları aşkar olunub. Həmin şəxslərin əmək hüquqları bərpa olunub və aidiyyəti vergi ödəyiciləri barəsində müvafiq tədbirlər görülərək ümumilikdə 60,0 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilib.

# Vergi orqanlarında vətəndaş müraciətlərinə həssas yanaşılır

DÖVLƏT VERGİ XİDMƏTİ

2026-ci ilin 1-ci rübü ərzində vergi orqanlarına 108.117 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,8 faiz azdır. Müraciətlərdən 94,1 faizi ərizə, 5,8 faizi şikayət, 0,1 faizi təkliflərdən ibarət olub.

Daxil olmuş müraciətlərdən 88,6 faizinin baxılması hesabat dövründə başa çatdırılıb, 11,4 faizi isə hazırda icradadır. Baxılması başa çatdırılmış müraciətlərin 61,8 faizi həll olunub, 36,6 faizi barədə müvafiq izahat verilib, digərləri ilə bağlı qanunvericiliyə uyğun tədbirlər görülüb.

Hesabat dövründə baxılmış faktiki şikayətlərdən 1.142-si həll edilib. Bunlar, əsasən, kameral vergi yoxlamaları, şəxsi hesab vərəqələri, sosial sığorta ödənişləri, vergi ödəyicisinin qeydiyyatı, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması və əvəzləşdirilməsi, vergi borcu və digər məsələlərlə bağlı olub.

Hesabat dövründə Dövlət Vergi Xidmətinin Aparatında müvafiq vəzifəli şəxslər tərəfindən ümumilikdə 113, o cümlədən şəhid ailəsi və müharibə iştirakçısı olan 4 vətəndaşın qəbulu təşkil edilib. Qəbul zamanı hər bir müraciətə fərdi yanaşılıb, vətəndaşların qanuni tələblərinin müsbət həlli üçün zəruri tədbirlər görülüb.

# Azərbaycan Poçt Daşıyıcıları Assosiasiyası ilə görüş keçirilib



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qarşılaşdıqları çətinliklərin operativ şəkildə öyrənilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə sahəvi assosiasiyalarla silsilə görüşlərini davam etdirir. Növbəti belə görüş DVX-nin Vergi siyasəti baş idarəsinin əməkdaşları ilə Azərbaycan Poçt Daşıyıcıları Assosiasiyasının nümayəndələri arasında baş tutub. Görüş zamanı dövlət – biznes dialoqunun əhəmiyyəti vurğulanıb, DVX tərəfindən özəl sektorla açıq və davamlı əməkdaşlığa xüsusi önəm verildiyi, vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi prosesində sahibkarların rəy və təkliflərinin nəzərə alındığı bildirilib. Assosiasiya üzvləri ilə vergi qanunvericiliyi və inzibatçılığının tətbiqi ilə bağlı yaranan suallar ətrafında geniş müzakirələr aparılıb.

Yekunda dövlət-özəl sektor əməkdaşlığının daha da inkişaf etdirilməsi və vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində sahibkarların rəy və təkliflərinin öyrənilməsi üçün görüşlərin davam etdiriləcəyi iştirakçıların diqqətinə çatdırılıb.

# Daha bir qrup qazi reabilitasiya olunaraq əvvəlki sağlamlıqlarına qovuşub

Reabilitasiya xidmətləri ilə təmin edilən müharibə ilə əlaqədar əlilliyi olan şəxslərdən bu günlərdə daha bir qrupunun artıq əlillik vəziyyətini geridə qoyaraq tam reabilitasiya olunduqları müəyyən edilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Respublika Reabilitasiya Mərkəzində müharibə ilə əlaqədar əlilliyi olan daha bir qrup şəxslə keçirilən görüşdə bildirilib.



Agentliyin İdarə Heyəti sədrinin müavini Vüqar Məmmədov qeyd edib ki, Zəfərimizlə yekunlaşan Vətən müharibəsindən sonra effektiv reabilitasiya tədbirləri nəticəsində tam reabilitasiya olunmaqla əvvəlki sağlamlığına qovuşan qazilərin sayı artıq 276-ya çatıb.

O, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə göstərilən reabilitasiyası xidmətləri barədə məlumat verib. Bildirib ki, qurumun müəssisələrində tətbiq edilən səmərəli reabilitasiya üsulları bu kateqoriyadan olan vətəndaşların səhhətində müsbət dönüş yaradır.

Postmüharibə dövründə Agentlik tərəfindən şəhid ailələrinin üzvləri və müharibə iştirakçılarından ibarət 30 minə yaxın şəxsin məşğulluğunun təmin edildiyi bildirilib. Həmçinin, onlardan 13,5 min şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatlarının qurulduğu diqqətə çatdırılıb.

Müharibə iştirakçıları sosial dəstək tədbirlərindən, o cümlədən reabilitasiya və xidmətləri və vasitələri ilə təmin edilmələri, əmək bazarına çıxış imkanlarına malik olmaları istiqamətində aparılan işlərdən razılıqlarını ifadə ediblər. Görüşdə müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların sosial dəstək tədbirləri, reabilitasiya xidmətləri ilə əhatə olunmaları sahəsində görülən işlərə dair fikir mübadiləsi aparılıb, rəy və təkliflər dinlənilib.

## "Azərbaycan Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq".

**Ümummilli lider Heydər ƏLİYEV**

***"İqtisadiyyat" qəzetinin bu sayında da AMEA-nın təsisçiləri haqqında məqalələrin dərcini davam etdiririk.***



**Yesman İosif Qavriloviç**
**(1868-1955)**

***Hidravlika sahəsində görkəmli sovet alimi İosif Qavriloviç Yesman 1 dekabr 1868-ci ildə Minsk şəhərində anadan olmuşdur.***

Hələ tələbəlik illərində gimnaziyada oxuyarkən İosif Qavriloviç hadisələri təhlil və ümumiləşdirməyə qadir iti zəkaya və böyük istedada malik olduğunu nümayiş etdirmişdir. 1887-ci ildə o, müsabiqə imtahanlarını qabaqcıllar sırasında verərək Sankt-Peterburq Texnoloji İnstitutuna daxil olmuş və 1892-ci ildə tam nəzəri hazırlıqlı və təcrübəli mühəndis kimi həyata qədəm qoymuşdur.

1902-ci ilə qədər İ.Yesman dəmiryol nəqliyyatında və su təchizatı sahəsində məsul mühəndis vəzifələrində çalışmışdır. Bu vaxt ərzində o, yeni salınan dəmir yollarının su təchizatı üçün 100-ə qədər layihə işləmiş, onun şəxsi rəhbərliyi altında bunlardan 60-ı tikilmişdir. 1902-ci ildən o, Peterburq Politexnik İnstitutunda elmi və pedaqoji fəaliyyətə başlamış və tezliklə hidravlika və hidravlik maşınları öyrənmək üçün xaricə ezam olunmuşdur.

1905-1912-ci illərdə İ.Yesman Politexnik İnstitutunun daxilində hidravlik laboratoriya təşkil etmiş, burada kanal və boruların yerli müqavimətlərini araşdırmaqla məşğul olmuşdur. 1910-cu ildə İ.Yesman professor Qrum-Qrjimaylo ilə birlikdə metallurji sobalarda qazların hərəkətinin riyazi əsaslandırılmış hidravlik nəzəriyyəsini yaratmışdılar.

1913-cü ildə İ.Yesman Peterburq institutlarının – Politexnik, Elektrotexniki, Mülki Mühəndislər institutlarının ordinar professoru, həmçinin bir sıra nazirlik və idarələrin – Sənaye və Ticarət Nazirliyi, Dəmir yolu Nazirliyi, Topçular Baş idarəsinin məsləhətçisi olmuşdur. Bu illər ərzində bir sıra müxtəlif jurnallarda çoxlu sayda elmi məqalələr çap etdirməklə yanaşı, o, su mühərriklərinin və mərkəzdənqaçma nasoslarının hidravlikası kurslarını yazmışdır. Bu əsərlər bir neçə dəfə nəşr olunaraq SSRİ-nin əksər ali məktəblərində dərs vəsaiti kimi istifadə olunmuşdur.

1911-ci ildən İ.Yesman Texnoloqların Elmi-texniki Cəmiyyətinin və Redaksiya Komitəsinin Sədri və "Maarif" nəşriyyatı tərəfindən nəşr olunan Hidravlika-texniki Ensiklopediyanın şöbə redaktoru vəzifəsində çalışmışdır.

1915-ci ildə dünya müharibəsi ilə əlaqədar İ.Yesman pedaqoji fəaliyyətini dayandıraraq Petroqrad vilayəti Ordusunun Təchizatı Komitəsində ölkənin müdafiəsinə işləyən zavodların təftişi şöbəsinə rəhbərlik etmişdir.

Sonrakı illər İ.Yesman Baş Artilleriya İdarəsinin nəzdində dövlət alüminium zavodlarının tikilməsində hidrotexniki tədqiqatlara rəhbərlik etmiş, həmçinin Rusiya Elmlər Akademiyasının Su enerjisi və Küləyin gücündən istifadə üzrə təbii istehsal güclərinin öyrənilməsi Komissiyasına rəhbər təyin olunmuşdur.

O, 1919-1920-ci illərdə Vladiqafqaz Politexnik İnstitunun rektoru olmuşdur.

1922-ci ildə İ.Yesman Bakıya, Azərbaycan Politexnik İnstitutuna professor kimi dəvət edilmiş və 1928-ci ildə institutunun rektoru vəzifəsinə seçilmişdir. 1923-cü ildən 1926-cı ilə qədər əvvəl Rusiya, sonra isə Azərbaycan Texniki Cəmiyyətinin Bakı şöbəsinin sədri vəzifəsində çalışmış, 1926-cı ildən 1929-cu ilədək Dövlət Şurasının və Azərbaycan SSR Maarif Nazirliyinin kollegiyasının üzvü olmuşdur.

1924-1953-cü illərdə İ.Yesman Azneftdə məsləhətçi işləyərkən, respublikanın neft sənayesi ilə bağlı mürəkkəb məsələlərin həllində fəal iştirak etmişdir.

1929-1932-ci illərdə o, Azərbaycan Energetika Komitəsinin Rəyasət Heyətinin Sədri olmuş, Azərbaycanın enerji mənbələrinin istifadəsi layihələrinin hazırlanmasına rəhbərlik etmişdir.

1929-cu ildə İ.Yesman Zaqafqaziya Sanitar Texnikası Elmi Tədqiqat İnstitutunun yaranmasının təşəbbüskarlarından biri və məsləhətçisi, 1935-ci ildə isə həmin institutun elmi tədqiqat işləri üzrə direktor müavini olmuşdur. 1930-cu ildən o, Zaqafqaziya Hidrotexnika və Energetika Elmi-Tədqiqat İnstitutunun məsləhətçisi vəzifəsində işləmişdir. Burada o, dağ çaylarında sel axınlarının hidravlik nəzəriyyəsinə dair çoxsaylı məsələlərin həlli ilə məşğul olmuş, əldə etdiyi nəticələr elmi-texniki ədəbiyyatda böyük marağa səbəb olmuşdur. 1929-1944-cü illərdə o, Azərbaycan Elmi-Texniki İnşaatçılar Cəmiyyətinə sədrlik etmişdir.

***Nasosqayırma və turbinqayırma sahəsində Ümumittifaq miqyasında görkəmli alim və mütəxəssislər sırasına daxil olmuş İ.Yesman su kəmərlərinin layihələndirilməsi və tikintisi üzrə böyük mütəxəssis idi. İ.Q.Yesman Bakı-Batumi neft kəmərinin layihələndirilməsi və tədqiqində fəal iştirak etmiş, Vladiqafqaz və Gəncə su kəmərləri layihələrinə rəhbərlik etmişdir.***

Dünya alimlərinin energetika və digər texniki elmlər üzrə elmi əsərləri sırasında İ.Yesmanın elmi əsərləri fəxri yer tutur. Öz elmi fəaliyyəti dövründə onun 130-dan artıq elmi iş dərc etdirmişdir.



İ.Yesmanın müxtəlif ixtisas sahələrində çalışan mütəxəssislər üçün hidravlika dərsliklərinin hazırlanmasında müstəsna xidmətlərini qeyd etmək lazımdır. O, hidravlika sahəsində 11 kitab yazmışdır. Professor İ.Yesman Azərbaycan Mərkəzi İcra Komitəsinin iki çağırış üzvü və uzun illər Bakı Şurasının deputatı olmuşdur. Özünün 60 ildən artıq elmi və mühəndis-pedaqoji fəaliyyəti dövründə İ.Yesman çoxlu sayda tələbələr yetişdirmişdir.

İ.Yesmana Əməkdar elm xadimi (1927), Əmək qəhrəmanı (1932) adları verilmişdir. O, Lenin (1953), Qırmızı Əmək Bayrağı (1941), "Qırmızı ulduz" ordenləri, "Qafqazın müdafiəsinə görə" və "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində Fədakar əməyə görə"medalları ilə təltif olunmuşdur.

1945-ci ildə İ.Yesman Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. İ.Yesmanın anadan olmasının 75, elmi-texniki və pedaqoji fəaliyyətinin 50 illik yubileyində Azərbaycan SSR Elmlər Akademiyasının Energetika İnstitutuna İ.Q.Yesmanın adı verildi.

Azərbaycan SSR EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, texnika elmləri doktoru, professor, Azərbaycan SSR Əməkdar Elm Xadimi İosif Qavriloviç Yesman 1 iyul 1955-ci ildə Bakı şəhərində vəfat etmişdir.

**Useynov Mikayıl Ələsgər oğlu**
**(1905-1992)**

Mikayıl Ələsgər oğlu Useynov 1905-ci ilin aprel ayında Bakıda anadan olmuşdur. 1911-ci ildə Mikayıl yüksək səviyyəli ümumtədris hazırlığı ilə fərqlənən Bakı realnı məktəbinə daxil olmuş, 1921-ci ildə II dərəcəli 5-ci məktəbdə təhsilini bitirmiş və 1922-ci ildə Azərbaycan Politexnik İnstitutunun mühəndis-inşaat fakültəsinin memarlıq şöbəsinə daxil olmuşdur.

1924-1928-ci illərdə M.Useynov və S.Dadaşov Divanxana, Xan sarayı kimi bu gün də ümumi ideyası və yüksək ifa səviyyəsi ilə insanı heyran edən nadir tikililərdə müfəssəl ölçmə işləri aparmış, 1926-cı ildə dahi Azərbaycan şairi Nizaminin abidəsi üçün açıq müsabiqədə birinci mükafatı qazanmışdılar.

1929-cu ilin dekabrında "Bakı şəhərində mədəniyyət sarayı və kitabxana" mövzusunda diplom layihəsi müdafiə edən M.Useynov mühəndis-memar diplomu almışdır.

***1930-1940-cı illər gənc sənətkarın yaradıcılığında məsuliyyətli dövr idi. O, bu illərdə çoxlu yeni yaşayış, ictimai və başqa təyinatlı binalar yaradaraq, Bakı memarlığını xeyli zənginləşdirmişdir. M.Useynovun əsərlərini XX əsrin Azərbaycan memarlığının ən yaxşı nümunələrinə aid etmək olar.***

1934-cü ildə Bakıda Sovetlər Sarayı – Azərbaycan SSR-in Hökumət evi üçün elan olunmuş müsabiqə memarlar və bütün Azərbaycan ictimaiyyəti üçün böyük hadisə oldu. M.Useynov və S.Dadaşovun iştirak etdiyi bu müsabiqə Azərbaycanın memarlıq tarixində bir sərhəd oldu – zamanca uzun bir dövrü əhatə edən sonrakı inkişaf mərhələsi bu müsabiqədən başlandı. Artıq gənc memarlar - M.Useynov və S.Dadaşov SSRİ Dövlət mükafatı laureatları sırasında idilər. Müharibədən əvvəlki illərdə M.Useynovun gördüyü işlər arasında Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi xüsusi yer tutur.

Böyük Vətən müharibəsi Azərbaycan memarlarının yaradıcılığının xarakterini kəskin surətdə dəyişdi. M.Useynov və S.Dadaşovun üzərinə Bakının böyük xalq təsərrüfatı və müdafiə əhəmiyyətli sənaye obyektlərində memarlıq-maskalama işləri üzrə məsuliyyətli vəzifə qoyulmuşdu.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyası sistemində Memarlıq və İncəsənət İnstitutu yaradılmış və Azərbaycan memarlıq tarixinin tədqiqi və yüksək ixtisaslı memar-alimlər və sənətşünaslar hazırlayan mühüm elmi mərkəzə çevrilmişdi.

1949-cu ildə Azərbaycanın dahi şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi münasibəti ilə şairin abidəsini də M.Useynovla F.A.Əbdürrəhmanov birlikdə layihələndirmişdilər. Böyük şairə ilk abidə M.Useynovun tərəfindən layihələndirilmiş və 1947-ci ildə Gəncədə qoyulmuşdur.

1949-cu ildə M.Useynov Azərbaycan Dövlət İctimai Kitabxanası binasının layihəsini yaratmış, Azərbaycan Elmlər Akademiyasının binalar kompleksinin layihəsini işləyib hazırlamışdır.

Müharibədən sonrakı illərdə inşaat sürətinin artması Azərbaycan memarları qarşısında kütləvi yaşayış evlərinin sənayeləşdirilməsi və tipləşdirilməsi problemini qoymuşdu. Bu çətin məsələnin həyata keçirilməsinə qoşulan M. Useynov 1949-50-ci illərdə kütləvi tikinti üçün Bakının və Abşeronun özünəməxsus təbii-iqlim şəraiti nəzərə alınmaqla, yaşayış evlərinin bir sıra layihələrini yaratmışdır.

1957-1959-cu illər görkəmli dövlət xadimlərinə, yazıçılara, şairlərə qoyulmuş abidələr cəhətdən məhsuldar olmuşdur. Bu illər ərzində M.Ə.Useynov bir-birinə bənzəməyən maraqlı abidələr: Moskvada və Naxçıvanda V.İ.Leninin, Bakıda və Qazaxda Səməd Vurğunun, Bakıda Mehdi Hüseynzadənin abidələrini və Bakıda "Azad qadın" heykəlini yaratmışdır.

Azərbaycan Dövlət Konservatoriyasının genişləndirilməsi zərurəti ilə bağlı olaraq, M.Useynov 1964-cü ildə memarlarla birgə opera studiyasının yeni korpusunun layihəsini işləyib hazırlamışdır.

Yeni "Moskva" mehmanxanası 1977-ci ildə Bakıda akademik M.Useynov tərəfindən son dərəcə gözəl relyefli sahədə, geniş park massivi ilə üzbəüz layihələndirilmiş və tikilmişdir.

1967-ci ildə istifadəyə verilmiş Bakı metropoliteni stansiyalardan biri akademik M.Useynovun layihəsi üzrə həyata keçirilmiş "Nərimanov" yeraltı stansiyasıdır.

Azərbaycan SSR Elmlər Akademiyasının mərkəzi kitabxanası M.Useynovun son illər yaratdığı parlaq əsərlərdəndir.

M.Useynov iki yüz əlli layihə yaratmış, onların çoxu tikilmişdir.

***Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq Memarı, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, memarlıq doktoru, professor M.Useynovun yaradıcılıq, elmi-pedaqoji və ictimai fəaliyyəti geniş və çoxcəhətlidir.***

M.Useynov ölkəmizin yeganə alimidir ki, İngiltərənin kraliçası II Yelizavetanın himayəsində olan İngiltərə və İrlandiyanın Kral Asiya cəmiyyətinin fəxri üzvü seçilmişdir.

Azərbaycanı dünyaya tanıdan, müasir klassikimiz olan M.Useynov 1992-ci ilin iyununda Beynəlxalq Memarlar Akademiyasının (BMA) fəxri üzvü seçilmişdir. Dünya şöhrətli memarlar Djonson Filipp (ABŞ), Vaqo Pyer (Fransa), Kurakava Kipo (Yaponiya), Korea Çarlz (Hindistan) və b. da bu akademiyanın fəxri üzvü olmuşlar.

Azərbaycan memarlıq məktəbinin qüdrətli nümayəndəsi, memarlıq tarixçisi, professor (1939), SSRİ Memarlıq Akademiyasının həqiqi üzvü (1950-1956; müxbir üzv 1941), Azərbaycan SSR Elmlər Akademiyasının akademiki (1945), SSRİ xalq memarı (1970), Sosialist Əməyi Qəhrəmanı (1985), Azərbaycan SSR əməkdar incəsənət xadimi (1940), SSRİ Dövlət mükafatı laureatı (1941), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1967), memarlıq doktoru (1950), Böyük Britaniya və İrlandiya Kral Asiya Cəmiyyətinin fəxri üzvü (1985), SSRİ Ali Sovetinin IV və V çağırış deputatı (1954-1962), Azərbaycan SSR Ali Sovetinin deputatı (3-cü çağırış – 1951-1954, 6-11-ci çağırışlar – 1963-1990) olmuşdur.

Professor Mikayıl Useynov Akademiyanın həqiqi üzvü, 15 təsisçidən biri seçiləndə cəmi 40 yaşı var idi.

Mikayıl Useynov 1992-ci ilin payızında 87 yaşında vəfat etmişdir.

## Prezident İlham Əliyevin yeni Sərəncamına əsasən İkinci Dünya müharibəsi iştirakçılarına və sənəddə nəzərdə tutulan digər şəxslərə birdəfəlik maddi yardım ödəniləcək

Sərəncam ümumilikdə 2 minə yaxın şəxsə şamil olunacaq.

Prezident İlham Əliyevin yeni "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncamı həmin kateqoriyalara aid vətəndaşlara növbəti yüksək diqqət və qayğını ifadə edir.

Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 81-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 2750 manat birdəfəlik maddi yardım ödəniləcək. İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına isə 1500 manat məbləğində birdəfəlik maddi yardım veriləcək. Sərəncamın ümumilikdə 2 minə yaxın şəxsə şamil olunacağı gözlənilir ki, onlardan 13-ü İkinci Dünya müharibəsi iştirakçılarıdır.

Birdəfəlik maddi yardımların verilməsi üçün Sərəncamla Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik maddi yardımlar İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

## Nazirlikdə İndoneziyanın ölkəmizdəki səfiri ilə görüş olub



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Berlian Helmi ilə görüş olub.

Azərbaycan və İndoneziya arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət əsasında inkişaf etdiyini bildirən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev əmək, məşğulluq, sosial müdafiə sahələrində də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edib.

2022-ci ilin dekabr ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İndoneziyanın İşçi Qüvvəsi Nazirliyi arasında imzalanan əməkdaşlıq sənədinə uyğun olaraq görülən işlərin Nazirliklər arasında əlaqələrin gücləndirilməsinə mühüm töhfə verdiyi vurğulanıb.

İslam Əməkdaşlıq Təşkilatının mənzil qərargahı Bakı şəhərində yerləşən Əmək Mərkəzinin Təşkilata üzv ölkələr arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlığın inkişafında önəmli rolu diqqətə çatdırılıb. Son illər Azərbaycanda aparılan sosial islahatlar, DOST konsepsiyası, sosial sahədə əldə olunan rəqəmsal uğurlar barədə səfirə məlumat verilib.

Berlian Helmi digər sahələrdə olduğu kimi, əmək, məşğulluq və sosial müdafiə sahələrində də ikitərəfli əməkdaşlığın inkişafı üçün səfirlik tərəfindən səylər göstəriləcəyini bildirib. Görüşdə qeyd olunan sahələrdə gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

## İlk rübdə Nazirliyin e-xidmətlərinə 2,1 milyon müraciət edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron xidmətlərinə 2026-cı ilin yanvar-mart aylarında 2,1 milyon müraciət edilib. Qeyd edilən dövrdə 63 min təyinat e-infrastruktur üzərindən, proaktiv qaydada həyata keçirilib, əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə 197 min elektron arayış verilib.

Son illərdə sosial sahədə icra olunan geniş elektronlaşma proqramı nəticəsində hazırda qurumun xidmətlərinin 90 faizdən çoxu e-qaydada təqdim olunur. Nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir.

Həmin qurumlardan sorğular da daxil olmaqla, bu ilin birinci rübündə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e-sistemləri üzərindən sorğu, müraciət və xidmət sayı 81 milyon olub.

TİBBDƏ PR

# İnformasiyalaşdırma və Kommunikasiya: PR mühitində nəzəri və praktik fərqlər

*(əvvəli ötən sayımızda)*



*Dilarə Zamanova,*
*Mərkəzi Gömrük Hospitalının*
*PR mütəxəssisi*

Müasir PR konsepsiyasına görə effektiv idarəetmə üçün dialoq vacibdir.

**İnformasiyalaşdırma:** "Yeni tibbi avadanlıq alındı."

**Kommunikasiya:** "Yeni avadanlıq xəstələrin müalicə keyfiyyətinə necə təsir edəcək? Sizin suallarınızı cavablandırırıq." Birinci cümlədə xəbər verilir, ikinci cümlədə isə etibar yaradılır.

Müasir PR-də əsas məqsəd artıq sadəcə xəbər yaymaq deyil, auditoriya ilə davamlı dialoq yaratmaqdır. Reputasiya, loyallıq və korporativ imic məhz kommunikasiya üzərində qurulur.

Xüsusilə daxili PR-da əməkdaşları yalnız məlumatlandırmaq kifayət etmir — onları dinləmək, cəlb etmək və prosesə şərik etmək lazımdır. Çünki informasiyalaşdırma struktur yaradırsa, kommunikasiya mədəniyyət yaradır.

*- Post paylaşmaq – informasiyalaşdırma;*

*- Posta şərhlər yazılması – kommunikasiya;*

*- Şərhlərə cavab verilməsi – idarə olunan kommunikasiya.*

**Eyni məlumatın müxtəlif sosial səhifələrdə fərqli reaksiyalarla qarşılanmasının səbəbi nədir?**

YouTube və TikTok platformaları video əsaslı olduğu üçün auditoriya üzərində daha güclü emosional təsir yaradır. Bu platformalarda məlumat yalnız mətn vasitəsilə deyil, görüntü, səs və hərəkət vasitəsilə təqdim olunur. Nəticədə istifadəçi məzmunu daha canlı və real şəkildə qəbul edir.

Video formatında insanın üzü görünür, mimika və bədən dili izləyiciyə birbaşa ötürülür. Səs tonu, intonasiya və vurğular mesajın emosional çalarını gücləndirir. Hərəkət və dinamika isə diqqəti daha uzun müddət saxlamağa kömək edir. Xüsusilə TikTok-un alqoritmi müzakirə və reaksiya doğuran məzmunu daha geniş auditoriyaya çatdırır. Şərh yazılan, paylaşım edilən və ya emosional cavab doğuran videolar daha sürətlə yayılır. Bu isə istifadəçiləri aktiv iştirak etməyə təşviq edir.

Beləliklə, video emosiyanı aktivləşdirir, emosional aktivlik isə insanı fikir bildirməyə, şərh yazmağa və müzakirəyə qoşulmağa sövq edir. Bu səbəbdən YouTube və TikTok platformalarında interaktivlik səviyyəsi daha yüksək olur. Bu da insanları şərh yazmağa stimullaşdırır. Facebook-da isə paylaşım və like daha ön plandadır. Şərh əsas yayılma mexanizmi deyil.

Facebook platforması daha çox məlumat yönümlü məzmunun paylaşıldığı bir mühit kimi xarakterizə olunur. Burada əsas diqqət xəbər, elan və müxtəlif tip paylaşım formatlarına yönəlir. İstifadəçilər çox zaman platformaya konkret məlumat almaq və ya gündəmdən xəbərdar olmaq məqsədilə daxil olurlar.

Bu platformada auditoriya adətən "passiv scroll" rejimində olur. Yəni, istifadəçilər lentdə qarşılarına çıxan paylaşımlara baxır, lakin hər məzmuna aktiv reaksiya vermirlər. Onlar məlumatı qəbul edir, lakin mütləq şəkildə şərh yazmaq və ya müzakirəyə qoşulmaq ehtiyacı hiss etmirlər.

TikTok alqoritmi müzakirə yaradan və aktiv reaksiya toplayan videoları daha geniş auditoriyaya çatdırmağa üstünlük verir. Şərhlərin çoxluğu, paylaşımlar və baxış müddəti platforma tərəfindən məzmunun maraqlı və diqqətçəkən hesab edilməsinə səbəb olur. Nəticədə mübahisə və diskussiya yaradan videolar daha sürətlə yayılır.

Həm TikTok, həm də YouTube platformalarında istifadəçilər çox vaxt real ad və soyadları ilə çıxış etmirlər. Profil adları və istifadəçi identifikasiyası daha sərbəst və qeyri-formal xarakter daşıyır. Bu isə anonimlik və psixoloji məsafə hissi yaradır. Anonimlik amili istifadəçilərin öz fikirlərini daha açıq və sərbəst şəkildə ifadə etməsinə şərait yaradır. İnsanlar sosial və ya reputasiya riskini daha az hiss etdikləri üçün daha cəsarətli mövqe nümayiş etdirirlər. Bu səbəbdən həmin platformalarda fikir müxtəlifliyi və emosional reaksiya səviyyəsi daha yüksək olur.

Facebook platformasında emosional impuls digər video əsaslı platformalarla müqayisədə daha zəif xarakter daşıyır. Bunun əsas səbəbi məzmunun böyük hissəsinin mətn və ya statik vizuallardan ibarət olmasıdır. Bu format ani və güclü emosional reaksiya yaratmaq baxımından video məzmun qədər təsirli olmur. Nəticədə istifadəçi daha çox oxuyan və izləyən mövqedə qalır.

Yaş artdıqca istifadəçilərin platformadakı davranış modeli də dəyişir. Daha yetkin auditoriya adətən daha az şərh yazır və daha çox müşahidəçi rolunda çıxış edir. Onlar informasiyanı oxumağa üstünlük verir, lakin hər paylaşıma açıq şəkildə reaksiya bildirməyi zəruri hesab etmirlər.

Facebook-da real sosial çevrənin mövcudluğu da bu davranışa təsir göstərir. Platformada istifadəçilərin qohumları, iş yoldaşları və müxtəlif tanışları yer alır. Bu isə sosial nəzarət amilini gücləndirir. İnsanlar yazdıqları şərhin geniş və real sosial mühit tərəfindən görünəcəyini nəzərə alaraq daha ehtiyatlı davranırlar. Nəticədə açıq və emosional reaksiya vermək azalır, şərh yazma aktivliyi isə aşağı düşür.

# Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində rekultivasiya işlərinə başlanılıb




"AzerGold" QSC tərəfindən yerli və beynəlxalq qanunvericiliyə, ətraf mühitin mühafizəsi və dayanıqlı inkişaf prinsiplərinə uyğun olaraq Daşkəsən rayonunun Çovdar kəndinin yaxınlığında yerləşən emal kompleksində rekultivasiya işlərinə başlanılıb.

Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) yerləşən, hazırda istismara yararsız olan və ümumilikdə 88 hektarı əhatə edən boş süxur anbarının 15 hektarlıq hissəsində artıq münbit torpaq qatı bərpa edilib, yamacbərkitmə işləri həyata keçirilib. Növbəti mərhələdə bioloji rekultivasiya tədbirləri çərçivəsində əraziyə 300 kiloqram yonca toxumu səpilib. Görülən işlər torpaq strukturunun yaxşılaşdırılmasına və ekosistemin mərhələli şəkildə bərpasına xidmət edir.

Rekultivasiya tədbirləri üzrə layihə planının növbəti mərhələləri çərçivəsində mədənin digər sahələrində hasilat nəticəsində münbitlik xüsusiyyətləri dəyişmiş torpaqların bərpası işlərinin davam etdirilməsi nəzərdə tutulur. Bu çərçivədə rekultivasiya tədbirləri mədən şirkətlərinin ekoloji məsuliyyətinin ayrılmaz hissəsi olmaqla, qanunvericilik və beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilir.

Qeyd edək ki, "AzerGold" QSC ölkədə rekultivasiya işlərini həyata keçirən ilk dağ-mədən şirkətidir. Şirkət tərəfindən istismarı başa çatmış "Ağyoxuş-1" qızıl mədənində rekultivasiya işləri həyata keçirilib.

# "X" sosial şəbəkəsi yeni mesencerini istifadəyə verdi




X" sosial şəbəkəsində (keçmiş "Twitter") "XChat" adlı mesencer istifadəyə verilib.

Qeydiyyat telefon nömrəsinə ehtiyac olmadan mövcud "X" sosial şəbəkə hesabı vasitəsilə mümkündür.

Tərtibatçılar mesencerdə başdan-başa şifrələmənin tətbiq olunduğunu bəyan ediblər.

Həmçinin elan edilmiş funksiyalar arasında audio və videozənglər, faylların göndərilməsi və qrup çatların yaradılması imkanı var. Ayrıca tətbiq daxilində ekran görüntülərinin çəkilməsinin bloklanması funksiyasının mövcudluğu vurğulanır.

# Mərkəzi Gömrük Hospitalı Laboratoriyasında SATLARS T8 texnologiyası tətbiq olunub



23 aprel 2026-cı il tarixində Mərkəzi Gömrük Hospitalının Laboratoriyasında SATLARS T8 texnologiyasının istifadəsinə dair təqdimat tədbiri keçirilib. Tədbirdə Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkim Bəxtiyar Musayev, Laboratoriya şöbəsinin rəisi Səbinə İbrahimova, həkim laborantlar və media nümayəndələri iştirak ediblər.

SATLARS T8 texnologiyası laborator diaqnostika sahəsində keyfiyyətin daha da yüksəldilməsi, xidmətlərin optimallaşdırılması və pasiyentlərə göstərilən tibbi xidmətin sürət və dəqiqliyinin artırılması istiqamətində mühüm addım kimi qiymətləndirilir.

Müasir laboratoriya sistemlərində yüksək keyfiyyət yalnız ayrı-ayrı analizlərin nəticələri ilə deyil, bütün proseslərin vahid sistemdə inteqrasiyası və effektiv idarə olunması ilə təmin edilir. Məhz bu yanaşmanı əsas götürən SATLARS T8 platforması laboratoriya proseslərinin tam avtomatlaşdırılmasına imkan yaradan innovativ və inteqrasiya olunmuş texnoloji həll kimi çıxış edir.

Texnologiyanın istehsalçısı olan "Shenzhen New Industries Biomedical Engineering Co., Ltd" Çin Xalq Respublikasında yerləşən və laborator diaqnostika sahəsində qlobal miqyasda tanınan lider şirkətlərdən biridir. Şirkətin məhsullarının 160-dan çox ölkədə tətbiqi onun yüksək etibarlılığını, texnoloji üstünlüyünü və beynəlxalq səviyyədə qazandığı güclü reputasiyanı bir daha təsdiqləyir.

SATLARS T8 sistemi süni intellekt dəstəyi ilə preanalitik mərhələnin idarə olunmasını və çoxmodullu inteqrasiya imkanlarını özündə birləşdirir. Hazırda sistem iki əsas platforma üzərində qurulub:

MAGLUMI X8 – işıq əsaslı immun analiz metodu ilə işləyən analizator olaraq geniş test paneli və yüksək məhsuldarlığı sayəsində klinik diaqnostikanın dəqiqliyini artırır və həkimlərin qərarvermə prosesini daha etibarlı edir.

Bioassay C8 – avtomatlaşdırılmış biokimyə analizatoru kimi biokimyəvi analizlərin yüksək dəqiqlik və sabitliklə icrasını təmin edir.

Bu iki sistemin inteqrasiyası analizlərin paralel şəkildə aparılmasına, iş axınının optimallaşdırılmasına və nəticələrin daha qısa müddətdə əldə olunmasına şərait yaradır. Qeyd edək ki, tətbiq edilən sistemlər beynəlxalq keyfiyyət standartlarına uyğun olaraq xarici keyfiyyətə nəzarət proqramları ilə dəstəklənir. Bu isə laborator nəticələrin etibarlılığını və dəqiqliyini daha da gücləndirir.

Mərkəzi Gömrük Hospitalı bundan sonra da müasir texnologiyaların tətbiqi və beynəlxalq təcrübənin inteqrasiyası yolu ilə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daim inkişaf etdirəcək.

*Dilarə Zamanova,*
*Mərkəzi Gömrük Hospitalının*
*PR mütəxəssisi*

# Mərkəzi Gömrük Hospitalında İllik Maarifləndirici Tədbirlər Planına uyğun növbəti maarifləndirici tədbir həyata keçirilib

24 aprel 2026-cı il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin təşkilatçılığı ilə Mərkəzi Gömrük Hospitalında "Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı 2026-cı il üçün Fəaliyyət Planı" üzrə İllik Maarifləndirici Tədbirlər Planına uyğun növbəti maarifləndirici tədbir həyata keçirilib.

Tədbirdə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım, Mərkəzi Gömrük Hospitalının rəis müavini Nahidə Mahmudova, Xəstə Xidmətləri şöbəsinin rəisi Cəmilə İsmayılova, Sığorta şöbəsinin rəisi İlahə Məmmədova, İT şöbəsinin rəisi Bəhruz Muradov, məsul tibb bacıları, rezidentler və əməkdaşlar iştirak ediblər.

Tədbirdə salamlama nitqi ilə çıxış edən Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım səhiyyə sahəsində korrupsiya ilə mübarizənin pasiyentlərin əlçatan, bərabər və keyfiyyətli tibbi xidmətlər əldə etməsində mühüm rol oynadığını vurğulayaraq, bu istiqamətdə sistemli yanaşmanın və institusional tədbirlərin gücləndirilməsinin vacibliyini qeyd edib.

Daha sonra Mərkəzi Gömrük Hospitalının Xəstə Xidmətləri şöbəsinin rəisi Cəmilə İsmayılova "Korrupsiya ilə mübarizədə Xəstə xidmətləri şöbəsinin işinin təşkili və bu sahədə zəruri addımlar" mövzusunda çıxış edərək, pasiyentyönümlü xidmətlərin təşkili zamanı şəffaflığın təmin olunmasının, xidmətlərə bərabər




çıxış imkanlarının yaradılmasının və etik davranış prinsiplərinə riayət edilməsinin korrupsiya risklərinin azaldılmasında mühüm rol oynadığını diqqətə çatdırıb.

Sığorta şöbəsinin rəisi İlahə Məmmədova isə "Sığorta şirkətləri və pasiyentlərlə iş sahəsində keyfiyyətli xidmətin təşkili" mövzusundakı çıxışında sığorta şirkətləri və pasiyentlərlə iş prosesində şəffaflıq, düzgün sənədləşmə və qarşılıqlı etimadın təmin edilməsinin vacibliyindən bəhs edib.

İT şöbəsinin rəisi Bəhruz Muradov "Tibb müəssisəsində korrupsiya ilə mübarizədə elektron xidmətlərin və rəqəmsallaşmanın vacibliyi" mövzusunda çıxış edərək, tibb müəssisələrində korrupsiya ilə mübarizədə rəqəmsallaşmanın roluna toxunub, elektron növbə sistemləri, tibbi informasiya sistemləri və nağdsız ödəniş mexanizmlərinin tətbiqinin şəffaflığın artırılmasına və insan amilindən irəli gələn risklərin azaldılmasına imkan yaratdığını bildirib.

Tədbir çərçivəsində iştirakçılar arasında mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb və səsləndirilən təkliflər dinlənilib. Sonda qeyd olunub ki, Mərkəzi Gömrük Hospitalında davamlı olaraq həyata keçirilən bu cür maarifləndirici tədbirlər səhiyyə sistemində şəffaflığın artırılması, etik davranış mühitinin gücləndirilməsi və korrupsiya risklərinin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir.

**Şəhla Mirzəzadə,**
**Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi Tədris Mərkəzinin mütəxəssisi**

E L A N

"Bakı-Ət" ASC-nin səhmdarlarının nəzərinə!

"Bakı-Ət" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı 29 iyun 2026-cı il saat 11:00-da Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Davud Aslan küç.2 ünvanında keçiriləcək.

**Gündəlik məsələlər:**

1. ASC-nin fəaliyyətinin 2025-ci maliyyə ilində yekununun müzakirəsi.
2. Maliyyə-təsərrüfat fəaliyyətinin təhlili, balansın təsdiqi.

**Əlaqə telefonu: 012 - 514-17-71**

**İdarə heyəti**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Məhiş Əhmədov, Zahid Məmmədov, Səbuhi Gülməmmədov, Elşad Səmədzadə, Aydın Hüseynov, Abbas Əliyev**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**